DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (333) / APREL 2019-CU İL

# ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏNİN ANADAN OLMASININ 70, ŞEYXÜLİSLAMLIQ FƏALİYYƏTİNİN 40 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



2019-cu ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olur.

Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Müxtəlif konfessiyaların dini liderləri arasında böyük nüfuza malik olan Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunmaqla, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına sanballı töhfələr verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsinin təkliflərini nəzərə almaqla, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 9 aprel 2019-cu il.*

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması müasir dünyada ölkəmizi nümunəvi tolerantlıq məkanı və multikulturalizm mərkəzlərindən biri kimi tanıtmışdır. Etnik-dini müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması və təşviqi dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Azərbaycanın bu sahədə zəngin təcrübəsi açıq şəkildə göstərir ki, multikulturalizm cəmiyyətdə həmrəyliyi, harmoniyanı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir. Əminəm ki, xristian həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə səylərini əsirgəməyəcəklər.

Dirçəlişi, yeniliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirən Pasxa bayramı insanların qəlbində inam və gələcəyə ümid hissi oyadır, onları xeyirxahlığa yönləndirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 26 aprel 2019-cu il.*

## BAKIDA "DİNLƏRARASI DİALOQ VƏ RADİKALİZMLƏ MÜBARİZƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Səh. 4

## MÜQƏDDƏS RAMAZAN AYI MAYIN 6-DA BAŞLAYIR



Səh. 5

## "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"



Səh. 6

## DİNİ RADİKALİZMƏ QARŞI MÜBARİZƏ İSTİQAMƏTİNDƏ MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR DAVAM ETDİRİLİR



Səh. 8

# "DÜNYA DİNİ LİDERLƏRİNİN II BAKI SAMMİTİ"NİN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏŞKİLAT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlər 2008-ci ildən etibarən, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi" çərçivəsində müzakirə olunur, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsi aparılır. Bu baxımdan, 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş sammitini sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyaların əməkdaşlığının genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfə hesab etmək olar.

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi, ayrı-ayrı regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu dini-ictimai xadimlərin iştirakı ilə birgə müzakirəsi aktuallıq kəsb edən məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Dünya dini liderlərinin II Bakı sammiti"nin 2019-cu il 14-15 noyabr tarixlərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Təşkilat Komitəsinin üzvləri

Şeyxülislam Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin sədri

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri

Etibar Nəcəfov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri

Mübariz Qurbanlı - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Ramiz Həsənov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İsa Həbibbəyli - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Siyavuş Novruzov - Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri

Aslan Aslanov - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri

Rövşən Məmmədov - "Azərbaycan Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini

İsmayıl Hacıyev - Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri

Aleksandr İşein - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu

Milix Yevdayev - Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri

Salman Musayev - Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini

Vasim Məmmədəliyev - Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şurasının sədri.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 11 aprel 2019-cu il.*

## MÜBARİZ QURBANLI: BU İL DƏ RAMAZAN AYI ƏRƏFƏSİNDƏ MONİTORİNQLƏR HƏYATA KEÇİRİLƏCƏK

Jurnalistlərə açıqlamasında "Ramazan ayı ilə əlaqədar tövsiyələrimiz ondan ibarətdir ki, ənənəvi dini qaydalara əməl edilsin" deyən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Ramazan ayı üçün Dövlət Komitəsinin Tədbirlər Planı hazırlanır və buna uyğun da fəaliyyət göstərilir. O qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə də qarşılıqlı şəkildə əməkdaşlıq edilir: "Həmçinin məscidlərdə Ramazan ayı ilə bağlı tədbirlər QMİ-nin müəyyən etdiyi vaxt çərçivəsində həyata keçirilməlidir. Bütün tələblərə riayət olunmalıdır. Bizim Komitənin əsas vəzifəsi verilən fətva və qayda-qanunlara əməl edilməsi istiqamətində öz üzərinə düşən vəzifəni yerinə yetirməkdir".

M.Qurbanlı monitorinqlərin keçiriləcəyini də vurğulayıb: "Təbii ki, bu il də Ramazan ayı ərəfəsində monitorinqlər həyata keçiriləcək. Ümumiyyətlə, hər həftənin cümə günü məscidlərdə Komitə tərəfindən mütəmadi monitorinqlər aparılır. Nəticə ilə əlaqədar müvafiq tədbirlər görülür və lazımi addımlar atılır".



## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ AĞCABƏDİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Aprelin 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağcabədidə bu rayondan, həmçinin Ağdam, Tərtər və Laçından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla anıblar.

Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının inzibati binasında keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR"

Aprelin 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağcabədi Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilib.



Ağcabədi rayon Mədəniyyət Mərkəzində keçirilən konfransda DQİDK və Ağcabədi RİH-in rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak ediblər.

Regional konfransda Ağcabədi RİH başçısı Şahin Məmmədov çıxış edərək, ölkəmizdə həyata keçirilən nümunəvi dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərin, tolerantlıq mühitinin qorunub saxlanılmasından söz açıb. Bildirib ki, respublikamızın digər bölgələrində olduğu kimi, Ağcabədi rayonunda da dini etiqad azadlığının təmin edilməsi, milli-mənəvi dəyərlərin təbliği istiqamətində xeyli iş görülüb, rayonda dini durum sabitdir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərimizin təşviqi, dini maarifçilik işinin aparılması və dini radikalizmlə mübarizə sahəsində aparılan işlər barədə danışıb.



Müasir dünya üçün ən ciddi təhdidlərdən birinin terror və ekstremizm olduğunu bildirən M.Qurbanlı dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. Diqqətə çatdırıb ki, hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə soyuq müharibə illərindəki ideoloji toqquşmanı əvəz edib.

Bildirilib ki, heç bir din radikallığa çağırış etmir. Həm İslamın, həm də Xristianlığın və Yəhudiliyin müqəddəs kitablarında insanlar birliyə, sülhə, əminamanlığa çağırılır. Amma bu gün dünyada din adı altında terrorlar törədilir, qarşıdurmalar yaradılır. İnsanların din adı ilə bir-birini qırması, terrorlar törətməsi cəhalətin nəticəsidir.

Dini maarifləndirmənin vacibliyindən danışan Komitə sədri deyib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Burada yüksəkixtisaslı, azərbaycançılıq ideyasının daşıyıcısı olan, islami dəyərləri, o cümlədən digər dinləri mükəmməl bilən kadrlar yetişəcək və gələcəkdə din sahəsində çalışacaqlar. M.Qurbanlı diqqətə çatdırıb ki, gənclərimizin maarifləndirilməsi, məlumatlandırılması məqsədilə yeni tədris ilindən ali məktəblərdə "Multikulturalizmə giriş" adlı fənn tədris olunacaq. O, eləcə də orta ümumtəhsil məktəblərində "Həyat bilgisi" fənninin proqramının genişləndirilməsi, İslam dini ilə bərabər digər dinlər haqqında da məlumatların verilməsinin əhəmiyyətinə toxunub.

Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Ramazan Hüseynov regionlarda keçirilən bu cür konfransların əhəmiyyətini yüksək qiymətləndirib.

Konfrans aprelin 25-də panel iclas ilə işini davam etdirib. "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda keçirilən tədbirdə məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Ağcabədi RİH başçısının müavini Naibə Mustafayeva açaraq bölgədəki dini durum haqqında məlumat verib. Keçirilən tədbirin əhəmiyyətinə toxunan N.Mustafayeva qeyd edib ki, dini maarifləndirmə sahəsinə böyük diqqət ayrılmalı, gənclərin radikalizm bəlasından qorunması üçün din onlara düzgün şəkildə çatdırılmalıdır.

DQİDK sədrinin müavini Gündüz İsmayılov ölkəmizdəki dövlət-din münasibətləri, tolerant və multikultural mühit haqqında danışıb. Qeyd edib ki, Azərbaycanda mövcud olan məzhəblərarası vəhdət bütün dünyaya nümunədir.

Dini radikalizmin yaranma səbəbləri və onun fəsadlarından bəhs edən sədr müavini bildirib ki, bəzi qruplar sülh dini olan İslamı siyasiləşdirərək öz məkrli planlarına alət etməyə çalışırlar. G.İsmayılov, həmçinin dini ekstremizm və radikalizmə qarşı mübarizə tədbirləri haqqında məlumat verib, ölkəmizdə bu sahədə maarifləndirmə işinin aparıldığını diqqətə çatdırıb. Sədr müavini onu da qeyd edib ki, gənclərin dini radikalizmdən qorunması üçün onların dini bilikləri artırılmalıdır.

Daha sonra çıxış edən Ağcabədi rayon Təhsil şöbəsinin müdiri İsmayıl Həsənov dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb. Bildirib ki, dini radikalizmə qarşı mübarizədə elmin, təhsilin rolu böyükdür. O, həmçinin qeyd edib ki, gəncləri yad dini təsirlərdən qorumaq üçün onlar milli-mənəvi dəyərlərimizə bağlı və vətənpərvər ruhda tərbiyə olunmalıdırlar.

Konfrans tədbir iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

# JAN-KRİSTOF POSEL: AZƏRBAYCAN MÜXTƏLİF SİVİLİZASİYALARA MƏXSUS İNSANLARIN SÜLH ŞƏRAİTİNDƏ YAŞAYA BİLƏCƏYİNİ GÖSTƏRƏN ƏN GÖZƏL NÜMUNƏDİR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı aprelin 25-də Fransa hökumətinin Azərbaycanda səfərdə olan dini işlər üzrə məsləhətçisi Jan-Kristof Posel ilə görüşüb. Mübariz Qurbanlı təkcə Fransanın deyil, Avropanın ən möhtəşəm tarixi-memarlıq abidələrindən biri olan Notr-Dam kilsəsində baş vermiş yanğınla bağlı dərin təəssüf hissi keçirdiyini və qədim dini abidənin tezliklə bərpa ediləcəyinə ümidvar olduğunu deyib.

Azərbaycan ilə Fransa arasında çoxşaxəli münasibətlərin zəngin tarixi olduğunu bildirən Dövlət Komitəsinin sədri Ulu Öndər Heydər Əliyevin Fransaya 1993-cü ildəki səfərini xatırladıb, ölkələrimiz arasında əməkdaşlığın Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da gücləndiyini qeyd edib.

Ölkələrimiz arasında humanitar yönümlü əlaqələrin də mövcudluğundan danışan M.Qurbanlı 2015-ci ildə Fransaya səfəri zamanı keçirdiyi görüşləri xatırladıb. O, səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşkilatçılığı ilə baş tutan "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində Parisdə keçirilən konfransda bir sıra aktual məsələlərin müzakirə edildiyini söyləyib, eyni zamanda, bu görüşlərin əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycan həqiqətlərinə toxunan komitə sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində dini-mədəni abidələrimizə qarşı törədilən vandalizm aktlarını da qonağın diqqətinə çatdırıb.

Jan-Kristof Posel Azərbaycanı müxtəlif mədəniyyətlərə, sivilizasiyalara məxsus insanların birgə və sülh şəraitində yaşaya biləcəyini göstərən ən gözəl nümunə adlandırıb. Qonaq ölkəmizin sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsi istiqamətində fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez də iştirak edib.

# BAKIDA "DİNLƏRARASI DİALOQ VƏ RADİKALİZMLƏ MÜBARİZƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB

Aprelin 25-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Avropa İttifaqının Bakı Ofisi və Azərbaycan Diplomatiya Akademiyasının (ADA) birgə təşkilatçılığı ilə "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda ikinci beynəlxalq konfrans keçirilib.

Avropa ölkələrindən dəvət edilmiş tanınmış elm və ictimaiyyət, xarici ölkə səfirlikləri, beynəlxalq təşkilat nümayəndələrinin, ölkəmizdə fəaliyyət göstərən nüfuzlu din xadimlərinin iştirak etdiyi konfransda əvvəlcə Yeni Zelandiya və Şri-Lankada həyatını itirmiş insanların ruhu bir dəqiqəlik sükutla yad edilib.

Sonra konfransın moderatoru Aİ-nin Azərbaycandakı nümayəndəsinin müavini Denis Daniilidis bildirib ki, son günlər Yeni Zelandiyada və Şri-Lankada baş verən hadisələr dini radikalizmlə mübarizənin hələ də başa çatmadığını göstərir. Bu baxımdan bu cür konfransların əhəmiyyətinə toxunan D.Daniilidis dini ayrı-seçkiliyin gücləndiyi müasir dövrdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyətini yüksək qiymətləndirib.




Konfransda çıxış edən DQİDK sədri Mübariz Qurbanlı mövzunun aktuallığını vurğulayıb. Bildirib ki, Yeni Zelandiya, Şri-Lankada baş verən terror hadisələrinə qarşı mübarizə bəşəriyyətin qarşısında duran ən əsas məsələlərdəndir. Müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışına nümunə olacaq ölkələr arasında Azərbaycan çox mühüm yer tutur. Ölkəmizdə multikultural dəyərlər dövlət səviyyəsində qorunur. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə tolerant dəyərlər ciddi mühafizə olunur. Azərbaycanda bütün dini inanclara, onların mənsublarına hörmətlə yanaşılır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi qorunub-saxlanılır. Azərbaycanda 33 qeyri-müsəlman dini icması fəaliyyət göstərir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankaukas belə konfransların keçirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, artıq ikincisi keçirilən bu konfrans tərəflərin müsbət təcrübə qazanmasına imkan yaradır. Nümayəndəliyin rəhbəri Yeni Zelandiya və Şri-Lankada baş vermiş dəhşətli hadisələri xatırladaraq deyib ki, bu cür hadisələrin qarşısının alınması üçün hər kəs səylərini birləşdirməlidir.

Azərbaycanla dini sahədə əməkdaşlığa toxunan Kestutis Yankauskas vurğulayıb ki, Azərbaycandakı dini liderlərin Brüsselə səfəri təşkil edilib. O həmçinin mayın əvvəlində Bakıda "İmagine" tolerantlıq festivalının keçiriləcəyini və bu tədbirin də müxtəlifliyə və tolerantlığa töhfə verəcəyinə ümüidvar olduğunu bildirib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, ekstremizmin qarşısını almaq üçün hər bir ölkə öz təcrübəsini bölüşməli, təbliğat aparmalıdır. Bundan başqa, dini radikalizmin yaranmasının səbəbləri araşdırılmalıdır. Əks halda nəticə əldə etmək çətin olacaq. Əgər bir ölkənin qanunvericiliyində dini dözümlülük, dini etiqad azadlığının qorunması məsələləri öz əksini tapmayıbsa, həmin ölkədə dini radikalizm meyilləri olacaq. Odur ki, Azərbaycanın Konstitusiyasında dini etiqad azadlığının qorunması ilə bağlı müddəalar öz əksini tapıb. Milli Məclisdə dini ekstremizmin aradan qaldırılması ilə bağlı qanun qəbul olunub.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə qeyd edib ki, bu konfransın təhsil ocağında keçirilməsi heç də təsadüfi deyil. Çünki gənclər arasında dini tolerantlığın təbliği mühüm əhəmiyyət kəsb edir. F.İsmayılzadə diqqətə çatdırıb ki, ADA universitetində təhsil alan gənclərin müxtəlif dinlərə aid ibadətgahlarla tanış olmasına, eləcə də onlar arasında multikultural dəyərlərin təbliğinə xüsusi önəm verilir.

Fransa hökumətinin dini işlər üzrə məsləhətçisi Jan-Kristof Posel bildirib ki, dünyada terrorçuluqdan, radikallıqdan sığortalanan ölkə yoxdur. Onun sözlərinə görə, din anlayışı ilə dini dona bürünmüş radikalizm arasında fərq qoyulmalıdır. Dinlərarası dialoqun vacibliyinə toxunan Fransa hökumətinin dini işlər üzrə məsləhətçisi bunun əks tərəflərin fikirlərini, istəklərini, fərqlərini üzə çıxarmağa imkan yaratdığını deyib. O qeyd edib ki, zorakılıqla din arasında fərq qoyulmalıdır. Dinlər bu məsələdə günahsızdır. Biz gənclərin dini düzgün öyrənmələri üçün yollar axtarmalıyıq. Bizim cəmiyyətlərimiz plüralist cəmiyyətlərdir, müxtəlif konfessiyalardan ibarətdir. Dini konfessiyaları birgə yanaşı yaşamağa təşviq etmək lazımdır. Biz bu fərqlilikləri problem kimi yox, zənginliyin nümunəsi kimi qəbul etməliyik.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Qəmər Cavadlı idarənin tarixi, hüquqi statusu və fəaliyyəti barədə məlumat verib. Bildirib ki, QMİ 1823-cü ildə rəsmi dini təşkilat kimi yaranıb. Bu illər ərzində QMİ-nin ən səmərəli dönəmi müstəqillik dönəminə təsadüf edir. Dövlətimiz müstəqillik qazanandan sonra dövlət-din münasibətləri də inkişaf edib. O, eyni zamanda QMİ-nin fəaliyyətində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası İdarəsinin nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete öz çıxışlarında Azərbaycanın çoxmillətli və çoxdinli ölkə olduğunu, bu ölkənin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyiblər. Qeyd olunub ki, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma olmayıb. Burada qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcuddur.

Konfrans işini aprelin 26-da "Dini icmalar sülhün carçısı kimi", "Dünyəvi dövlətlərdə dövlət-din münasibətləri", "Zorakı ekstremizmin qarşısının alınmasında maarifləndirmə tədbirləri" mövzularında panellərlə davam etdirib.

* * *

Əvvəlcə Azərbaycandakı multikultural mühitdən bəhs edən videoçarx nümayiş olunub.

ADA Universitetinin dosenti Anar Vəliyevin moderatorluğu ilə "Dini icmalar sülhün carçısı kimi" mövzusunda keçirilən birinci paneldə çıxış edən Rumıniya müsəlmanlarının dini rəhbəri Murad Yusif Azərbaycanda mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm kimi məsələlər üzrə fəal iş aparıldığını qeyd edib. O eyni zamanda, Rumıniyada müsəlman icmasının fəaliyyəti, gördüyü işlər barədə ətraflı danışıb. Natiq ölkəsi ilə Azərbaycanın əlaqələrindən də bəhs edib.

Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov radikalizmi doğuran səbəblər, onunla mübarizədə qarşıya çıxan problemlərə toxunub və bu istiqamətdə təcrübə mübadiləsinin zəruriliyini vurğulayıb.

Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili ölkəmizdə dini icmalara göstərilən diqqət və qayğıya toxunub. Bildirib ki, Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri üçün hər cür şərait yaradılıb.

İtaliya Təhsil Nazirliyinin əməkdaşı Covanni Koqliandro, Avropa yəhudilərinin Bakı dini icmasının, "Həyat sözü" xristian dini icmasının nümayəndələri, İlahiyyat məscidinin imamı Ceyhun Rüstəmov "Dini icmalar tolerantlıq və sülhün daşıyıcısı kimi", "Dini icmalarla əlaqələrin qurulması və dinlərarası tolerantlıq üzrə fəaliyyət" mövzularında fikirlərini bölüşüblər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Ravan Həsənovun moderatorluğu ilə baş tutan "Dünyəvi dövlətlərdə dövlət-din münasibətləri" mövzusunda ikinci paneldə çıxış edən Rumıniya Hökümətinin Dini Məsələlər üzrə dövlət katibinin məsləhətçisi Katalina Ray müasir dövrdə din və dövlət əlaqələrinin müxtəlif ölkələrdə fərqli istiqamətlərdə inteqrativ mahiyyətə malik olduğunu bildirib. O qeyd edib ki, din-dövlət münasibətlərində dünyəvi sistem tərəfindən- "azadlıq, demokratiya, insan hüquqları və hüququn üstünlüyü"- anlayışı prinsipial hüquqi ifadə olaraq qəbul edilir. Bu baxımdan modern dövlət iddiasını daşıyan hər bir dövlət bu və ya digər cəhətdən bu prinsiplərə sadiq qalmalıdır.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bu gün Azərbaycanın dünyaya özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini təqdim etdiyini bildirib. Azərbaycanın bu sahədəki təcrübəsinin kifayət qədər olduğuna diqqət çəkən sədr müavini ölkəmizdə kilsə, sinaqoq və məscidlərin azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərdiklərini deyib. G.İsmayılov vurğulayıb ki, belə bir mühit dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış mədəniyyətini həyat tərzinə çevirməsi nəticəsində formalaşıb. Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi Ümummilli lider Heydər Əliyevdir. Ulu Öndərin müəyyənləşdirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bir sözlə, multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir. Hazırda Azərbaycan dünyada bu dəyərlərin ən böyük ixracatçısına çevrilib.

davamı səh. 5

# MÜQƏDDƏS RAMAZAN AYI MAYIN 6-DA BAŞLAYIR



Aprelin 29-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib. Müqəddəs Ramazan ayı mayın 6-da başlayır.

Bununla əlaqədar keçirilən tədbirdə əvvəlcə müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Tədbirdə çıxış edən QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə deyib ki, dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların himayədarı kimi çıxış edir. Yeni Zelandiyada baş verən terror hadisəsi islamafobiyanın bariz nümunəsidir. Lakin Azərbaycanda belə hallar yaşanmır.

O deyib: "Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi təqdirəlayiq haldır. Bu qərarlar Azərbaycanda dini tolerantlığın dövlət siyasəti olmasını bir daha təsdiq etdi. Müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən dövlətimizin başçısının "İslam Həmrəyliyi İli" ideyası yalnız İslam dünyası daxilində deyil, İslam dini ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir".

Sonra Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Ramazan ayının başlanması ilə əlaqədar fətvası oxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ramazan ayının fəzilətlərindən danışıb. Ölkəmizdə dini radikalizmlə mübarizə məsələsinə toxunan M.Qurbanlı bu sahədə xeyli irəliləyişə nail olunduğunu bildirib. Lakin bu sahədə hələ də bəzi çatışmazlıqların mövcud olduğunu deyən komitə sədri həmin problemlərin aradan qaldırılması yollarından danışıb.

Şamaxı Astrofizika Rəsədxanasının direktoru Namiq Cəlilov ölkəmizdə elmin bu sahəsi üzrə görülən işlərdən danışıb, qazanılan nailiyyətlərə toxunub.

# BAKIDA «DİNLƏRARASI DİALOQ VƏ RADİKALİZMLƏ MÜBARİZƏ» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB

əvvəli səh. 4

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov rəhbərlik etdiyi ali məktəbin yaranmasından və fəaliyyətindən söhbət açıb. İnstitut rəhbəri ölkəmizdə dini təhsilin tarixindən, AİI-nin fəaliyyətinin təşkili istiqamətində görülən işlərdən və qarşıda duran vəzifələrdən ətraflı bəhs edib. C.Məmmədov bildirib ki, dövlət başçımızın Sərəncamı ilə yaradılan İlahiyyat İnstitutu yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyət sahəsində yüksəkixtisaslı kadr hazırlığının təmin olunması məqsədilə yaradılıb.

Florensiya Dinlərarası və Mədəniyyətlərarası Dialoq İnstitunun vitse-prezidenti, katolik keşişi Andre Bellandi, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev çıxışlarında mədəniyyətlərarası və dinlərarası qarşılıqlı anlayışın qorunması və inkişafı məqsədilə dini və dünyəvi tədrisin inteqrasiyası, həmçinin digər mövzular barədə danışıblar.

Rumıniya Hökumətinin Dini Məsələlər üzrə dövlət katibinin məsləhətçisi Katalina Rayın moderatorluğu ilə baş tutan "Zorakı ektremizmin qarşısının alınmasında maarifləndirmə tədbirləri" mövzusunda üçüncü paneldə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdəki dinlər və etnik qruplar arasındakı münasibətlər Ümummilli Liderimiz Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmlənib, bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ulu Öndərin siyasi xəttini uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multi-mədəni harmoniyanın təminatçısı və himayədarıdır.

S.Heydərov qeyd edib ki, bu gün dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşıb. Sədr müavini deyib ki, dini təhlükəsizlik milli təhlükəsizliyin başlıca tərkib hissəsidir. Azərbaycan mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edib və bu siyasətin hazırkı dövrdə davam etdirilməsi son dərəcə vacibdir. Günümüzdə dini radikalizm ölkələrin sərhədlərini aşaraq beynəlxalq səviyyədə problemə çevrilib. Dini ekstremizmlə mübarizə müasir dövrün sosial problemi olmaqdadır. Bunun aradan qaldırılması istiqamətində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müvafiq qurumlarla həyata keçirdiyi kompleks tədbirlərə toxunan Komitə rəsmisi deyib ki, dini radikalizmə qarşı mübarizə 3 istiqamətdə aparılır. İdeoloji müstəvidə aparılan mübarizə barədə danışan S.Heydərov dini radikalizmin və ekstremizmin fəsadlarını real faktlarla ictimaiyyətə nümayiş etdirilməsi üçün DQİDK-nın sifarişi ilə sənədli filmlər hazırlandığını diqqətə çatdırıb.




Sədr müavini çıxışının sonunda Azərbaycanın bir çox sahələrdə olduğu kimi, dövlət-din siyasətinin də nümunəvi modelini nümayiş etdirdiyini və bu sahədəki təcrübəni hamı ilə bölüşməyə hazır olduğunu vurğulayıb. Ölkələr arasında müvafiq istiqamətdə təcrübə mübadiləsinin aparılması, əməkdaşlıq prespektivlərinin müzakirə edilməsi üçün Avropa İttifaqının nəzdində platformanın yaradılması təşəbbüsünü irəli sürüb.

İordaniyada yerləşən "ARDD" beynəlxalq QHT-nin rəhbəri İzabella Astor, Beynəlxaq Miqrasiya təşkilatının nümayəndəsi Müşviq Eminov, Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taleyə İbrahimova, Gənclər və İdman Nazirliyinin məsul əməkdaşı Əli Məmmədov, Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndəsi Abbas Abbasov, Təhsil Nazirliyinin əməkdaşı Samir Həmidov ekstremizmin və dini radikalizmin qarşısının alınması istiqamətində maarifləndirmə tədbirlərinin təşkili, birgə müzakirələrin aparılması və mübarizə tədbirlərinin effektivliyinin artırılması metodlarından danışıblar.

İkigünlük beynəlxalq konfrans işini mövzu ətrafında müzakirələrlə yekunlaşdırıb.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"




**BİLƏSUVARDA**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Biləsuvar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə aprelin 11-12-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Biləsuvar RİH başçısının birinci müavini Xanlar Məmmədov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi Əlifağa Murtuzov, gənclər, dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən RİH başçısının birinci müavini Xanlar Məmmədov ölkəmizdəki nümunəvi dövlət-din münasibətlərindən söz açıb. Bildirib ki, dinə dövlət qayğısının təməlində milli-mənəvi dəyərlərimizin qorunması, qloballaşan dünyada milli özünəməxsusluğun itirilməsinin qarşısının alınması, Azərbaycançılıq məfkurəsinin təbliği və gəncləri milli ruhda yetişdirmək istəyi durur.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında dövlətin dini etiqad və vicdan azadlığının təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər barədə danışıb. Vurğulayıb ki, Azərbaycan hakimiyyəti ölkədə mövcud olan dini dözümlülük və multikultural ənənələrin qorunub saxlanılması, həmçinin radikallıq meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Respublikada bütün dinlərin nümayəndələrinə dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün bərabər imkanlar yaradılır.

Müasir dövrdə dövlətin qarşısında duran əsas vəzifələrdən birinin də milli-mənəvi dəyərlərin, tolerantlıq ənənəsinin qorunması, eyni zamanda gənc nəslə aşılanması olduğunu bildirən Səyyad Salahlı dini dəyərlər sisteminin kompleks şəkildə öyrənilməsinin və cəmiyyətə çatdırılmasının əhəmiyyətinə toxunub.

**İkigünlük seminar-müşavirə növbəti gün öz işini davam etdirib.**

Tədbiri giriş sözü ilə açan Biləsuvar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı rayondakı dini durum barədə ümumi məlumat verib, Biləsuvarda dini icmaların fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirib.

QMİ-nin səlahiyyətli nümayəndəsi Əlifağa Murtuzov Azərbaycan dövlətinin ölkədəki dinlərə və dindarlara qayğısı barədə geniş çıxış edib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Tural Vəlizadə vurğulayıb ki, müasir dünyada ifratçılığın ən qabarıq şəkildə özünü göstərən formalarından biri dini radikalizm və ekstremizmdir. Dini radikalizmə qarşı mübarizədə maarifləndirmənin önəmindən danışan natiq bu istiqamətdə keçirilən tədbirlərin əhəmiyyətinə diqqət çəkib.






İslam dininin sülhsevərliyi, tolerantlığı, həmçinin zorakılığa və terrora qarşı olmasından bəhs edən "Üfüqdəki gələcək" filminin də nümayiş olunduğu seminar-müşavirənin sonunda iştirakçılara DQİDK tərəfindən çapına icazə verilmiş dini ədəbiyyatlar paylanılıb.

**QUBADA**

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə aprelin 18-19-u DQİDK və Quba RİH birgə təşkilatçılığı ilə keçirilib.

Quba rayon Heydər Əliyev Mərkəzində baş tutan seminar-müşavirədə DQİDK-nın rəhbərliyi, Quba RİH başçısı Aparatının rəsmisi, QMİ-nin səlahiyyətli nümayəndəsi, eyni zamanda ziyalılar, gənclər, dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İkigünlük seminar-müşavirəni giriş sözü ilə açan Quba RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov ölkəmizdə dövlət-din münasibətlərinin düzgün tənzimlənməsi istiqamətində görülən işlər barədə danışaraq bu sahədə keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, hazırda Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi önəm verilir, dini qurumların dini ayin və mərasimləri sərbəst yerinə yetirmələri üçün lazımi şərait yaradılıb və bütün dini konfessiyalara qayğı göstərilir. Sağlam dini maarifləndirmənin aparılması istiqamətində səylərin daha da gücləndirilməsinin əhəmiyyətinə toxunan sədrin birinci müavini cəmiyyətimizin, xüsusilə gənclərin radikal təsirlərdən qorunmasında hər kəsin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

QMİ-nin Quba bölgəsi üzrə qazısı Naib Səttarov da çıxışında gənclərin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorunmasında din xadimlərinin üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib.

Seminar-müşavirənin ikinci günündə çıxış edən Tariyel İbrahimov ölkəmizdə, o cümlədən Quba rayonunda mövcud olan tolerant dini mühitin qorunmasının vacibliyindən danışıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dindən siyasi məqsədlər üçün istifadənin yolverilməzliyini və buna qarşı mübarizədə birliyin vacibliyini önə çəkib. Səyyad Salahlı, həmçinin dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları, dünyada baş verən siyasi proseslərin dini radikalizmə təsiri barədə geniş məlumat verib. Dövlətin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlərdən danışan DQİDK sədrinin birinci müavini, eyni zamanda gənclərin, ziyalıların və din xadimlərinin dini radikalizmlə mübarizədə fəal olmalarının vacibliyindən söz açıb.

DQİDK-nın Mərkəzi Aparatının əməkdaşları Tərxan Paşazadə və Orxan Maşayev isə çıxışlarında qloballaşmanın dinin ictimai tərəflərinə təsiri, eyni zamanda radikalizmin və zərərli ideologiyaların yayılmasında sosial şəbəkələrin rolu barədə tədbir iştirakçılarını məlumatlandırıblar.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub və mövzu ətrafında müzakirələr aparılıb.

# “DİNİ RADİKALİZMLƏ MÜBARİZƏDƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ ƏHƏMİYYƏTİ” MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə aprelin 30-da “Dini radikalizmlə mübarizədə birgə fəaliyyətin təşkili və əhəmiyyəti” mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir və ölkəmizdə müxtəlif dünyagörüşünə məxsus insanlar yaşayır. Hər kəsin hüquq bərabərliyi, vicdan azadlığının təmin olunduğu ölkəmizdə yüksək tolerantlıq mühiti mövcuddur. Xalqımızın əsrlərin sınağından süzülüb gələn bu mütərəqqi keyfiyyəti dövlətimizin ardıcıl və məqsədyönlü siyasəti ilə dəstəklənir və daha da inkişaf etdirilir.

Sədrin birinci müavini təəssüflə qeyd edib ki, hazırda dünyanı cənginə alan dini radikalizm təhlükəsi bizim ölkəmizə də ciddi təhdid yaradır. Fərqli dini dünyagörüşünə mənsub insanların sülh şəraitində birgə yaşadığı cəmiyyətlər üçün bu təhdid xüsusilə təhlükəli sayılır. Dini radikalizm həm ayrı-ayrı fərdləri, həm cəmiyyəti, həm də dövləti narahat edir. Bu baxımdan ona qarşı mübarizənin də formatı çox geniş olmalıdır.

S.Salahlı vurğulayıb ki, dini radikalizmə qarşı mübarizədə əsas dayanıqlı metod dini maarifləndirmədir. O, Dövlət Komitəsinin dini radikalizmə qarşı mübarizə istiqamətində ideoloji müstəvidə bir sıra müvafiq dövlət strukturları, qeyri-hökumət təşkilatları, media qurumları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov “Dini radikalizmlə mübarizədə birgə fəaliyyətin təşkili” adlı təqdimatla çıxış edib. Sədr müavini din sahəsində ideoloji, milli və ictimai təhlükəsizlik baxımından üzləşdiyimiz təhdidlərin geniş izahını verib. O, eyni zamanda təqdimatında dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, məzhəbçiliyin, xarici təsirlərin, radikallığın gücləndirilməsi, eləcə də dinin siyasiləşdirilməsi, cəmiyyətdə dini qütbləşmənin və sosial təbəqələşmənin yaradılması istiqamətlərində məkrli qrupların zərərli fəaliyyətinə geniş yer ayırıb. Dini radikalizmə zəmin yaradan dini savadsızlıq, fanatizm, cahillik kimi problemlərin düzgün izahı üçün konkret nümunələr təqdim edib. Dini radikalizmə qarşı mübarizə istiqamətində kompleks tədbirlər barədə danışan sədr müavini iqtisadi, inzibati və ideoloji müstəvidə görülən işlərə toxunub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov dini radikalizmə qarşı mübarizədə yüksəkixtisaslı milli kadrların potensialından istifadənin önəmindən bəhs edib. Dini sahədə mənəvi dəyərləri əsas götürən, dinə məhdud çərçivədə deyil, geniş prizmada yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanmasının zəruri olduğunu vurğulayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutunun hazırladığı kadrların ölkəmizdə yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsində mühüm rol oynayacağına əmin olduğunu dilə gətirib. Ə.Zülfüqarov bu istiqamətdə teoloq hüquqşünasların, psixoloqların da yetişdirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini deyib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev dini radikalizmə və fanatizmə alternativ kimi ənənəvi İslam dəyərlərinin təbliğinin əhəmiyyətinə diqqət çəkib. Eyni zamanda din ilə terrorizmin, radikalizmin yanaşı çəkilməsinin çox acınacaqlı hal olduğunu bildirib.

Daha sonra çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova, Gənclər və İdman Nazirliyinin sektor müdiri Elşən Hüseynov, Təhsil Nazirliyinin nümayəndəsi Samir Həmidov və Gənclər Fondunun şöbə müdiri Ramil Məmmədov dini radikalizmə qarşı mübarizədə təmsil etdikləri qurumların həyata keçirdiyi tədbirlər barədə məlumat veriblər, bu bəlaya qarşı birgə mübarizənin zəruriliyini vurğulayıblar.

Konfrans öz işini müzakirələrlə yekunlaşdırıb.

# “MƏZHƏBÇİLİK - DİNİ TƏHLÜKƏSİZLİYƏ TƏHDİD KİMİ”



Aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və İmişli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Məzhəbçilik – dini təhlükəsizliyə təhdid kimi” mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə DQİDK və İmişli RİH-in rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, İmişli, Beyləqan, Füzuli, Xocavənd və Saatlı rayonlarının icra və hüquq-mühafizə orqanlarının rəsmiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminar-müşavirədə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş “Şəhadət” sənədli filmi nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan İmişli RİH-in başçısı Vilyam Hacıyev son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, İmişli rayonunda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb, rayonda bütün vətəndaşların adət-ənənələrinin və dini ayinlərinin icrası üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxışında bildirib ki, istənilən ölkədə dini radikalizm və ekstremizmin əhatə dairəsinin genişlənməsi ictimai və milli təhlükəsizlik risklərini artıra bilər. Hətta bəzən müəyyən xarici siyasi və dini dairələrin bəzi ölkələrdə fərqli məzhəb mənsubları arasında gərginlik, qarşıdurma yaratmaq cəhdləri həmin ölkələr üçün ictimai təhlükəsizlik baxımından ciddi təhdiddir.

Məzhəbçiliyin yaratdığı fəsadlara toxunan sədr müavini vətənpərvərlik hissi zəif olan insanların yad dini ideologiyaların təsirinə daha tez məruz qaldıqlarını və cəmiyyətimiz üçün təhlükəli şəxslərə çevrildiklərini vurğulayıb. Vətənpərvərlik hissinin gücləndirilməsində milli-mənəvi dəyərlərin özünəməxsus rolu olduğunu deyən S.Heydərov qeyd edib ki, Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində həyata keçirdiyi tədbirlərdə dini fanatizm, dini radikalizm və dini ekstremizm meyillərinə qarşı mübarizə ilə yanaşı, gənclərin Vətənə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə edilməsinə xüsusi önəm verildiyi deyib.

Sədr müavini deyib ki, dünyada qlobal təhlükəsizliklə bağlı çox ciddi narahatlıqların yaşandığı, terrorizmin, ekstremizmin və radikalizmin bəşəriyyəti daim təhdid altında saxladığı, həmçinin təcavüzkar Ermənistanın işğal etdiyi ərazilərdə hərbi təxribatlara ara verməsaid bir şəraitdə Azərbaycanın daxili sabitliyinin qorunub saxlanması, cəmiyyətimizdə multikultural, tolerant ənənələrin və həmrəyliyin möhkəmlənməsi, bütün sahələrdə sabit, ahəngdar inkişafın təmin olunması böyük nailiyyətdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. O bu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla aparıldığını diqqətə çatdırıb, ölkəmizdə azərbaycançılıq məfkurəsinin, milli-mənəvi, dini dəyərlərin, tolerantlıq siyasətimizin təbliği və daha da möhkəmləndirilməsinin, bu mühitin qorunub saxlanılmasının həyata keçirilən din siyasətinin mühüm istiqamətlərini təşkil etdiyini vurğulayıb.

Sonra çıxış edən Respublika Prokurorluğunun nümayəndəsi İldırım Vəliyev və Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev dini radikalizm və onun fəsadları, eləcə də hüquqi müstəvidə aparılan mübarizə metodologiyası haqqında geniş məlumat veriblər.

Seminar-müşavirə müzakirələrlə davam edib.

# DİNİ RADİKALİZMƏ QARŞI MÜBARİZƏ İSTİQAMƏTİNDƏ MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR DAVAM ETDİRİLİR



Aprelin 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Bahar Enerji Əməliyyat" şirkətinin kollektivi ilə dini radikalizmə qarşı mübarizə istiqamətində maarifləndirici görüş keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, "Bahar Enerji Əməliyyat" şirkətinin kommersiya işləri və xarici əlaqələr üzrə vitse-prezidenti Rahib Mustafayev, eləcə də müəssisənin əməkdaşları iştirak ediblər.

Səyavuş Heydərov öz çıxışında son dövrlər dindən siyasi məqsədlər və qarşıdurma yaratmaq məqsədilə istifadənin bəzi ölkələrdə sabitliyin pozulması ilə nəticələndiyini vurğulayıb. O bildirib ki, din pərdəsi adı altında münaqişələr baş vermiş ölkələrdə hadisələrin gedişatı İslamın siyasi proseslərə cəlb olunmasının, dindən qarşıdurma yaratmaq məqsədilə istifadənin hansı fəsadlarla nəticələnəcəyinə açıq nümunədir.

S.Heydərov İslamın məqsədli şəkildə terror dini kimi təbliğ edilməsinin Avropada islamofobiya hallarının artması ilə nəticələndiyini diqqətə çatdırıb. Komitə sədrinin müavinin sözlərinə görə, belə bir şəraitdə dinlərarası qarşılıqlı anlaşma, hörmət prinsiplərinin qorunub saxlanılması və qeyd olunan mənfi təzahürlərin qarşısının alınması üçün düzgün dini maarifləndirmənin aparılması xüsusi əhəmiyyət kəsb edir. O əlavə edib ki, bu gün hər bir vətəndaş yaradılan şərait və imkanlardan istifadə edərək bir-birinə dəstək olmalı, cəmiyyətin, özəlliklə gələcək nəslin düzgün ruhda tərbiyəsinə və maariflənməsinə yardım etməlidir.

* * *

Analoji tədbir aprelin 22-də "Suraxanı Oil" Əməliyyat Şirkətində təşkil olunub.

Görüşdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, "Suraxanı Oil" Əməliyyat Şirkətinin Ümumi işlər departamentinin direktoru Ceyhun Əkbərov, Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımov, şöbənin əməkdaşları, eyni zamanda əməliyyat şirkətinin kollektivi iştirak edib.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək bildirib ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və hazırda ölkəmizdə formalaşmış dövlət-din münasibətləri dünyaya nümunədir.



Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onunla mübarizənin hüquqi əsasları barədə məlumat verən S.Heydərov qeyd edib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işlərinin gücləndirilməsindən ibarətdir.

İslam dininin sülh dini olduğunu vurğulayan Dövlət Komitəsi sədrinin müavini təəssüflə qeyd edib ki, bəzi qüvvələr öz maraqlarını həyata keçirmək üçün din amilindən istifadə edirlər. Qeyd edib ki, son dövrlərdə dünyada, o cümlədən Yaxın Şərqdə gedən proseslərdə, baş verən qarşıdurmalar və müharibələrdə din amili daha qabarıq şəkildə özünü büruzə verir. Buna görə də sədr müavini respublikamızda ictimai-siyasi sabitliyin qorunması, eləcə də dini radikalizm və ekstremizmlə mübarizə sahəsində hər kəsi fəal olmağa çağırıb.

Tədbirlərin sonunda "Şəhadət" sənədli filmi nümayiş edilib.

# "DİNİ TƏHSİL, DİNİ TƏRBİYƏ VƏ DÜNYƏVİLİK"

Aprelin 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda tədbir keçirilib. Bakı şəhər ümumtəhsil məktəblərinin direktorlarının iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, Dövlət Komitəsi müvafiq dövlət qurumları ilə birgə ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizənin aparılması məqsədilə müxtəlif səpkili tədbirlər həyata keçirir. O qeyd edib ki, DQİDK Təhsil Nazirliyi ilə də sıx əməkdaşlıq edir, xüsusilə təhsil müəssisələrində məktəbli və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması istiqamətində çoxsaylı tədbirlər görülür. S.Heydərov təhsilin dini radikalizm və ekstremizmə alternativ olduğunu diqqətə çatdıraraq bu istiqamətdə ideoloji mübarizə sahəsində müəllimlərin də üzərinə məsuliyyət düşdüyünü vurğulayıb.




Sədr müavini bildirib ki, bəzi dairələr tərəfindən radikal yönümlü dini cərəyanların Azərbaycana ixrac olunmasına da cəhdlər edilir. Lakin ölkəmizin müvafiq qurumları tərəfindən bu cür cəhdlərin qarşısı qətiyyətlə alınır. Vurğulanıb ki, bu baxımdan məktəblilərin ayıq-sayıqlığının artırılması, onların dinlə bağlı məlumatları etibarlı mənbədən almaları olduqca vacibdir.

Daha sonra DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini-ideoloji təhlükəsizliyin təminatına yönəlmiş təhdidlər ətrafında təqdimatla çıxış edib. Bu prosesin detallarını açıqlayaraq, onun qarşısının alınması sahəsində mübarizə metodları barədə geniş məlumat verib. Bəzi dini qrupların məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoymağa cəhdlərin edildiyini qeyd edən G.İsmayılov dinin cəmiyyətdəki funksiyaları barədə danışıb. Həmçinin cəmiyyətimiz üçün real təhlükə olan dini fanatizm, dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları haqqında məlumat verib.

DQİDK-nın sədr müavini Azərbaycan dövlətinin din siyasətinin əsas prioritet istiqamətlərindən danışaraq vurğulayıb ki, dövlətin bu sahədə başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi, həmçinin respublikamızda milli dini kadrların hazırlanmasıdır. O, bu məqsədlə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının, din xadimlərinin maddi təminatının yüksəldilməsi üçün onlara maddi dəstək verilməsinin Prezident İlham Əliyev tərəfindən atılmış uzaqgörən, məntiqli və mütərəqqi addım olduğunu diqqətə çatdırıb.

Bakı Şəhər Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev çıxışında Azərbaycanın tolerant və multikultural dəyərlərinin təşviq və təbliğinin, həmçinin gənclərimizin milli-mənəvi dəyərlərimizin əsasında tərbiyə olunmasının vacibliyinə diqqət çəkib. İdarə müdiri DQİDK ilə dini maarifləndirmə sahəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətindən danışıb və Dövlət Komitəsinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib.

# DÖVLƏT KOMİTƏSİNDƏ "YEHOVANIN ŞAHİDLƏRİ"NİN AVROPA ASSOSİASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov aprelin 3-də "Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

Görüşdə S.Heydərov Azərbaycanda dini sahədə həyata keçirilən uğurlu siyasət, vətəndaşların etiqad azadlığı haqqını təmin etmək istiqamətinə yönəldilmiş məqsədyönlü tədbirlər barədə danışıb. O, ölkəmizdə zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək şəkildə fəaliyyət göstərməyən bütün dini icmalara zəruri şəraitin yaradıldığını, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərildiyini diqqətə çatdırıb.

"Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının sədri Toni Breys Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək, ölkəmizdə bütün dinlərin nümayəndələrinin bərabərhüquqlu fəaliyyət göstərmələri üçün hər cür şəraitin yaradılmasının əyani şahidi olduğunu vurğulayıb. Bunu tolerantlığın bariz nümunəsi kimi qiymətləndirən qurumun sədri dini icmaya göstərilən dəstəyə və qayğıya görə minnətdarlığını bildirib.

Tərəfləri maraqlandıran bir sıra digər məsələlərin də müzakirə olunduğu görüşün sonunda qonaqlara Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə maddi-mənəvi irsimizə qarşı törədilən vandalizmdən bəhs edən kitablar təqdim olunub.



# "DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL"

**Neftçalada**

Aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Neftçala Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə din və təhsil" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Tədbirdə DQİDK və RİH-in rəhbər şəxsləri, məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gəncləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Neftçala RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev mövzunun əhəmiyyətinə toxunub. O, gənclərimizin milli-mənəvi



dəyərlərimizin əsasında tərbiyə olunmasının vacibliyinə diqqət çəkib. Milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə sintez edilməsinin əhəmiyyətinə toxunan V.Əliyev vurğulayıb ki, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq orta məktəblərdə daim diqqət mərkəzində saxlanılmalıdır.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlər barədə məlumat verib. Maarifləndirmə məqsədi ilə keçirilən silsilə tədbirlərin davam etdirilməsinin zəruriliyini qeyd edən Gündüz İsmayılov bildirib ki, ibadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslamın vəhdət və qardaşlıq dini kimi xarakterizə olunması təsadüfi deyil. Çünki dinimizin əsas məqsədi həm də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır.

G.İsmayılov ümumtəhsil məktəblərində milli-mənəvi, o cümlədən dini dəyərlərimizlə bağlı biliklərin daha da dərinləşdirilməsinə ehtiyac olduğunu qeyd edib. O, uşaqlar və gənclərin dinlə bağlı məlumatların etibarlı mənbədən almalarının vacibliyini vurğulayıb. Sədr müavini dini biliklər deyildikdə əsasən bütün dinlərin, müqəddəs kitabların mahiyyətinin, eləcə də dini radikalizm haqqında məlumatların nəzərdə tutulduğunu bildirib. G.İsmayılovun sözlərinə görə, gənclərə lazımi dini biliklərin sistemli şəkildə verilməməsi onların dini radikalizmin, xurafatın təsirinə düşmə ehtimalını artırır. Sədr müavini "Həyat bilgisi" fənni daxilində dinlər barədə biliklərin verilməsi istiqamətində atılan addımların əsas məqsədinin hər bir kəsdə zərərli dini təbliğata qarşı "immunitet" formalaşdırmaq olduğunu söyləyib.

**Lerikdə**

Aprelin 10-da DQİDK və Lerik RİH-in birgə təşkilatçılığı ilə təşkil olunan analoji tədbirdə Dövlət Komitəsi və RİH-in rəhbər şəxsləri, məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gəncləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Arzu Vəliməmmədova bölgədəki dini durum barədə məlumat verərək bildirib ki, milli-mənəvi və dini dəyərlərimizin təbliği dövlətimizin siyasətində mühüm istiqamətlərdən biridir. O qeyd edib ki, ölkəmiz multikultural, tolerantlıq nümunəsi olmaqla yanaşı, adət-ənənələrimizin qorunub saxlanılmasına böyük önəm verir, xalqımızın söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasını təşkil edir.

Mövzunun əhəmiyyətindən danışan DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə radikalizm ideyalarının yayılmasının qarşısının alınması, o cümlədən, dinlə, milli-mənəvi dəyərlərimizlə bağlı düzgün maarifləndirmə işinin bir neçə istiqamətdə aparıldığını bildirib. Dövlət Komitəsinin maarifləndirmə məqsədilə ölkənin, demək olar ki, bütün rayon və şəhərlərində ardıcıl olaraq dəyirmi masalar, konfranslar keçirdiyini önə çəkən G.İsmayılov bu tədbirlərin əsas mövzusunun dövlət-din münasibətləri, ölkəmizin tolerantlıq ənənələri, onların qorunması və daha da inkişaf etdirilməsi, ənənəvi İslamın müasir cəmiyyətin tələbləri ilə uyğunlaşdırılması və ən əsası da gənclərin maarifləndirilməsi olduğunu qeyd edib. Gənclərin düzgün dini biliklərə yiyələnmələrinin vacibliyini diqqətə çatdıran natiq vurğulayıb ki, bəzən dini dəyərlərlə dünyəvi dəyərlər qarşılaşdırılır, dünyəvilik anlayışı ilə dini dəyərlərin ziddiyyət təşkil etməsi istiqamətində əsassız fikirlər səsləndirilir. Bunların da qarşısını yalnız dini və dünyəvi bilikləri yüksək olan cəmiyyət ala bilər.

Daha sonra Lerik rayonu Təhsil şöbəsinin müdiri Zöhrab Salayev çıxış edərək, dini maarifləndirmənin gənc nəslin tərbiyəsində və yetişdirilməsində böyük önəm daşıdığından bəhs edib.

**Naftalanda**

DQİDK və Naftalan ŞİH-in birgə təşkilatçılığı ilə daha bir seminar-treninq aprelin 24-də baş tutub.

Seminar-treninqi giriş sözü ilə açan Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədov çıxışında ölkəmizdəki dini dözümlülük, vicdan azadlığının təmin edilməsi istiqamətində atılan addımlardan danışıb. Görülən işlərin milli-mənəvi və islami dəyərlərin təbliği və təşviqində, dini qurumlarla dövlət təşkilatları, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna rola malik olduğunu bildirib.

Daha sonra DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxış edərək bildirib ki, dinin fərdin və cəmiyyətin həyatında mühüm yer tutduğunu nəzərə alaraq dərs vəsaitlərinin içində dinlə bağlı materialların həcminin çoxaldılması,



ilkin dini təsəvvürlərin yaradılması mühüm əhəmiyyət kəsb edir. Sədr müavini qeyd edib ki, təhsil müəssisələrində, xüsusilə məktəblərdə dinlə bağlı məlumatların verilməsi gənclərin yanlış təsəvvürlərə yönəlməməsi baxımından çox mühümdür. G.İsmayılov vurğulayıb ki gənclərə sağlam dini biliklərin verilməməsi müəyyən boşluqlara səbəb olur və bundan istifadə edən qüvvələrin bu boşluqları öz mənfəətlərinə uyğun şəkildə doldurmasına gətirib çıxarır.

Komitə rəsmisi çıxışında, eyni zamanda dini sahədə mənəvi dəyərləri əsas götürən, dinə məhdud çərçivədə deyil, geniş prizmada yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan yüksək dini və dünyəvi savada malik olan ixtisaslı kadrların da hazırlanmasının əhəmiyyətinə diqqət çəkib. Gündüz İsmayılov bu məqsədlə Prezident İlham Əliyev tərəfindən yaradılan Azərbaycan İlahiyyat İnstitutunun tədris proqramında dünyəvilik prinsiplərinin qorunduğunu, tələbələrə dünyəvi biliklərlə yanaşı, mükəmməl dini biliklərin də verildiyini deyib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mətbuat Xidmətinin məlumatı

Qafqaz Müsəlmanları İdarəsində Ramazan ayının başlaması ilə bağlı keçirilmiş tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının söylədiyi fikirlər barədə çoxsaylı jurnalist sorğularının daxil olduğunu nəzər alaraq, aşağıdakıları bildirməyi zəruri hesab edirik:

Yeni tədris ilindən etibarən ali təhsil ocaqlarında "Multikulturalizmə giriş" əsas fənn kimi tədris olunacaqdır. Əslində bu fənn 2015-ci ildən ali məktəblərdə seçmə fənn kimi tədris edilirdi. Lakin indi bu fənlə bağlı ciddi dəyişikliklər baş verəcək.

Bu fənnin tədrisi üçün dərslik vəsaiti Azərbaycan Respublikası Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin rəhbərliyi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə hazırlanır.

Dərs vəsaiti üzərində işlər davam edir. Dərslik iki hissədən ibarətdir: multikulturalizm bölməsi və dinlər, dini durum, milli-mənəvi dəyərlərimiz və s. mövzuları əhatə edən digər bölmə.

Fənnin tədrisində əsas məqsədlərdən biri də tələbələrə bütün dinlər, xüsusilə İslam dini barədə məlumat vermək, dini radikalizm, radikal dini cərəyanlar, onların təbliğat metodları, milli-mənəvi dəyərlərimiz, onların qorunmasının zəruriliyi, Azərbaycan dövlətinin bu istiqamətdə siyasəti ilə bağlı minimum məlumatları çatdırmaqdır.

Kitabın müəllifləri arasında dövlət qurumlarının əməkdaşları, ilahiyyatçılar, ali məktəb müəllimləri və bu sahənin digər peşəkar mütəxəssisləri də var.

Bir daha qeyd edirik ki, bu fənn orta məktəblərdə deyil, ali təhsil ocaqlarında tədris olunacaqdır.

Orta məktəblərə gəlincə, böyüməkdə olan nəslin milli-mənəvi dəyərlərimizə uyğun formalaşması istiqamətində bütün zəruri tədbirlər görülür. Eyni zamanda neçə illərdir ki, orta məktəblərdə "Həyat bilgisi" adlı fənn tədris olunur. Bu fənn çərçivəsində şagirdlərə dinlərlə bağlı məlumatlar da verilir.

Hazırda "Həyat bilgisi" fənninin proqramında dinlər haqqında məlumatların genişləndirilməsi məqsədilə işlər görülür. Ümumiyyətlə, məqsəd dinlər barədə şagirdlərə məlumat vermək, onların bu istiqamətdə dünyagörüşünü artırmaqdır. Bir sözlə, söhbət orta məktəblərdə dinin tədrisindən yox, dinlərlə bağlı ilkin biliklərin verilməsindən gedir. Bu sahənin təkmilləşdirilməsi istiqamətində gələcəkdə də işlər davam etdiriləcəkdir. Azərbaycanla yanaşı, digər ölkələrdə də belə təcrübələr var. Hətta bir sıra ölkələrdə bütün dinlər (səmavi və digərləri) barədə orta təhsil müəssisələrində ayrıca dərslər keçirilir.

# «Dini radikalizm və ekstremizm - milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi»



Dövlət Sərhəd Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə tədbirlər planına uyğun olaraq aprel ayının 5-də Şəmkir sərhəd dəstəsində "Dini radikalizm və ekstremizm - milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan seminarda Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Seminarda çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə dini radikalizmin və ekstremizmin təbliğat metodları, onların törətdiyi fəsadlar barədə ətraflı danışıb. Bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənilib və bu cür əməlləri törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlərin müsbət nəticə verməsindən danışılıb.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunub.

Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanıb.

Sonda dini radikalizmin və ekstremizmin törətdiyi fəsadlara həsr edilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

# "DİNİ MAARİFÇİLİYİN TƏŞKİLİNDƏ QADINLARIN YERİ VƏ ROLU"




Bərdədə 25 və 26 aprel tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini maarifçiliyin təşkilində qadınların yeri və rolu" mövzusunda regional konfrans keçirilib.

Tədbirdə DQİDK və RİH-in rəsmi nümayəndələri, rayon, idarə, müəssisə, təşkilatlarında, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində çalışan qadınlar, eyni zamanda ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Bərdə RİH-in əməkdaşı Fəxrəddin Əzizov açaraq mövzunun aktuallığını diqqətə çatdırıb. O, cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması istiqamətində həyata keçirilən dini maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edib.

Daha sonra Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Dini maarifçilik işində qadınlar" adlı təqdimatla çıxış edib. Şöbə müdiri dini maarifçiliyin təşkili, onun əhəmiyyəti və bu işdə qadınların rolu haqqında geniş məlumat verib. Dini dəyərlərimizin sağlam əsasda, həm xurafatdan, mövhumatdan, həm də radikalizmdən uzaq şəkildə gənclərə aşılanmasının zəruriliyini bildirib, bu dəyərlərin qorunmasında və gələcək nəsillərə çatdırılmasında cəmiyyətin bütün təbəqələrinin üzərinə mühüm vəzifə düşdüyünü diqqətə çatdırıb.

Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "Erkən nikah və onun fəsadları" mövzusundakı təqdimatında erkən nikahla bağlı ölkə qanunvericiliyində təsbit olunan hüquqi prosedurlar, problemin yaranmasının səbəbləri, aparılan araşdırmalar və statistik göstəricilər haqqında ətraflı məlumat verib. O, erkən nikahın bir çox hallarda ailədaxili zorakılıq hallarının, ana və uşaq ölümlərinin, boşanmaların sayının artması, qadınlarda müxtəlif psixoloji, fizioloji xəstəliklərin yaranması kimi problemlərə səbəb olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, erkən nikah probleminin yaranmasında valideynlərlə yanaşı, gənclərin təhsil aldığı məktəb, ictimaiyyət də məsuliyyət daşıyır. Y.Əliyeva təhsilin və bu istiqamətdə maarifləndirmənin sözügedən problemin həll olunmasına çox böyük fayda ola biləcəyini söyləyib.

DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə "Xurafat: necə və nə etməli" mövzusundakı təqdimatında xurafat və onun törətdiyi fəsadlara toxunub. Xurafatın zərərləri ilə bağlı nümunələr gətirən A.Abdullayeva onun cəmiyyətin inkişafına mane olduğunu və qarşısının alınmasında maarifləndirmənin, islami dəyərlərin düzgün formada, olduğu kimi təbliğ edilməsinin əhəmiyyətini qeyd edib.

İkigünlük regional konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.




Hər il müsəlmanlar "on bir ayın sultanı" Ramazanı səbirsizliklə gözləyir, onun gəlişini böyük sevinc və coşqu ilə qarşılayırlar. Artıq İslam dünyasında mərhəmət və bərəkət rəmzi olan Ramazanın ab-havası hiss edilir. Ölkəmizdə də Ramazana hazırlıq gedir və insanlar bu fəzilətli ayın gəlişini böyük həyəcanla gözləyirlər.

Orucun vacib buyurulmasında məqsəd mənən zənginləşmək, səbirli, dözümlü və mərhəmətli olmağı öyrənməkdir. Oruclu şəxs Allaha xoş getməyən və günah əməllərdən özünü qorumalıdır. Qurani-Kərimdə buyurulur: *«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!...»* (əl-Bəqərə, 183).

Orucluq vaxtı Allahın lütfü ilə insanlara müəyyən fürsətlər verilir. Şeytanın əli qandallanır, möminlərin günahları bağışlanır, Cənnətin qapıları açılır, Cəhənnəminki isə bağlanır. Məhəmməd peyğəmbər (s) buyurmuşdur: *«Ramazan ayı gəldikdə Cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar və şeytanlar zəncirlənər»* (Səhihi-Buxari).

Orucun müsəlmanlara vacib edilməsində bir neçə hikmət var. Birincisi, oruc Allaha ibadət, Onun əmrlərini yerinə yetirmək, haramdan çəkinmək mahiyyəti daşıyır. Məhəmməd peyğəmbər (s) Allah-Təalanın oruc haqqında belə buyurduğunu bildirir: *«Oruc istisna olmaqla, digər ibadətlər Adəm övladınındır. Oruc mənimdir, onun mükafatını mən verəcəyəm. Çünki Adəm övladı oruc tutduqda mənə görə yeməyi, içməyi və şəhvət hissini tərk edir»* (əl-Buxari).

İnsanın Allahın həqiqi bəndəsi olmasını dərk etməsi və bunu yaşaması, Onun bütün əmr və hökmlərinə tabe olması Uca Yaradana ibadətin başlıca məqsədlərindəndir. Buna görə də oruc saf niyyətlə və sırf Allaha ibadət məqsədilə tutulmalıdır. Oruc ibadətini arıqlamaq və insanlara oruclu olduğunu göstərmək niyyətilə yerinə yetirmək şəriətə ziddir.

Orucun müsəlmanlara vacib buyurulmasında digər hikmət nəfsin tərbiyəsi, müsəlmanlarda səbir və dözümlülüyün möhkəmləndirilməsidir. Oruc müsəlmanlara əzmkar və nəfsə hakim olmağı, istəklərin əsirinə çevrilməməyi öyrədir.

Oruc insana sevgi, mərhəmət və qayğı hissləri aşılayır. O, insanın özünü yeyib-içməkdən məhrum etməsi məqsədilə vacib buyurulmayıb, imkansızlara köməklik göstərmək və onların yaşadıqları hissləri duymaq bu ibadətin vacib şərtlərindəndir. İmkanlı şəxs müvəqqəti də olsa, kasıb insanın keçirdiyi hissləri yaşayır, aclığın nə olduğunu anlayır. Oruclu insan oruc tutmaqla yanaşı, təqva mərtəbəsinə yüksəlir, daim Allaha zikr edir, Onun əmrlərini yerinə yetirir və qadağalarından çəkinir.

Orucun insan sağlamlığına da bir sıra faydaları var. Mütəxəssislər il boyu dincəlmədən çalışan həzm orqanlarına istirahət verilməsinin vacibliyini vurğulayaraq, orucun ürək, damar və şəkər xəstəliklərinə müsbət təsir göstərdiyini bildirirlər. Bu, Məhəmməd peyğəmbərin (s) orucun faydası ilə bağlı hədisində də təsdiqlənir: *«Oruc tutun ki, sağlam olasınız»* (əl-Buxari).

Müsəlmanlar Allah-Təalanın tövsiyələrini yerinə yetirərək bu ibadətin verdiyi fəzilətlərdən səmərəli bəhrələnməli, Allaha daha çox dua etməli, imkansız insanlara əl tutmalı, günahlardan təmizlənməli, mənən zənginləşməli və paklaşmalıdır.

Allah-Təala oruc və dualarınızı qəbul etsin!

***"Cəmiyyət və Din"***

# AZƏRBAYCANIN ŞİMAL VƏ CƏNUB BÖLGƏLƏRİNDƏN OLAN DİN XADİMLƏRİ BİRGƏ NAMAZ QILIBLAR

Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Lənkəran şəhərində "Vəhdət dəyərimizdir" layihəsi çərçivəsində seminar təşkil edilib. Seminarda Quba, Qusar, Siyəzən, Şabran, Xaçmaz, Masallı, Yardımlı, Astara, Lerik və Lənkəran rayonlarından olan dini icma sədrləri və din xadimləri iştirak ediblər.

Seminar çərçivəsində Azərbaycanın şimal və cənub bölgələrindən olan din xadimləri Lənkəran şəhəri Böyük Bazar "Cümə" məscidində və Kiçik Bazar "Hüseyniyyə" məscidində birgə namaz qılıblar.

Seminarın ikinci günündə Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinovun "Azərbaycanda birgəyaşayış ənənəsi", İnstitutun İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazovun "İslam məktəblərində ortaq dəyərlər" və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyevin "Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda mühazirələri dinlənilib.

Aprelin 24-də seminar iştirakçıları üçün Heydər Əliyev adına xatirə parkı və Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və Həzi Aslanovun ev muzeyi ilə tanışlıq, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Vəhdət qanımızdadır" adlı sənədli filmin nümayişi təşkil olunub.



# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini fanatizmə, xurafata, radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:



**8 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə “Aprel döyüşləri bizim şanlı qələbəmizdir” mövzusunda;

**9 aprel** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzi və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə “Milli ailə dəyərlərimiz” mövzusunda;




**10 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Yardımlı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Aprel döyüşləri bizim şanlı qələbəmizdir” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Rəstəcə kənd tam orta məktəbində;

**11 aprel** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in birgə təşkilatçılığı ilə Qazax Dövlət Sosial-İqtisad Kollecində “Dini radikalizmə, erkən nikaha və narkomaniyaya “yox” deyək” mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə “Narkomaniya, erkən nikah və dini radikalizm dövrün bəlasıdır” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə “Gənclərin dini radikalizm və onun fəsadlarından qorunması” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Dini radikalizmin fəsadları” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və rayonun Polis Şöbəsinin birgə təşkilatçılığı ilə “Dini radikalizmə, zərərli vərdişlərə və erkən nikaha yox deyirik” mövzusunda;

**12 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Dinlərin humanist mahiyyəti, tolerantlıq və multikulturalizm - din adından istifadə edən radikal qruplara qarşı” mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon “N” saylı hərbi hissənin birgə təşkilatçılığı ilə “Vətənpərvərlik dini radikalizmə qarşı aparılan mübarizədə ən önəmli vasitədir” mövzusunda;

**16 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzində “Dini radikalizm narkomaniya, erkən nikah və onların fəsadları” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Mamrux kənd tam orta məktəbində “Milli-mənəvi dəyərlərdən qaynaqlanan vətənpərvərlik” mövzusunda; Xətai RİH, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Xətai rayonunda yerləşən 261 saylı orta məktəbdə;

**17 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in birgə təşkilatçılığı ilə Ağdaş şəhəri Səməd Vurğun adına 1 saylı tam orta məktəbdə “Gənclərin dini radikalizmdən qorunması: hüquqi və mənəvi yanaşma” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Z.Bünyadov adına Astara şəhər 2 saylı tam orta məktəbdə “Gənclərin radikal dini təsirlərdən qorunması” mövzusunda; Qaradağ RİH və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Sahil qəsəbəsində “Dini maarifləndirmə: perspektivlər” mövzusunda; Qax RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Baydarlı kənd tam orta məktəbində “Dini radikalizmlə mübarizə” mövzusunda;

**18 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayonun Polis Şöbəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qazma kənd 1 nömrəli tam orta məktəbində “Dini radikalizmə və ekstremizmə qarşı mübarizədə vətənpərvərlik hissinin önəmi” mövzusunda;

**19 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Qeyri-ənənəvi dini cərəyanlara qarşı mübarizədə idman ictimaiyyətinin rolunun artırılması” mövzusunda;

**25 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayonun Polis Şöbəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qurban Nağıyev adına Kortala kənd tam orta məktəbində “İşıqlı gələcək naminə dini radikalizm, erkən nikah və zərərli vərdişlərə yox deyək” mövzusunda keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər müxtəlif dini cərəyanların yaranma tarixindən, zərərli dini qrupların təbliğat metodlarından bəhs ediblər. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini təriqətlərə maraq azalıb.






Eyni zamanda, tədbirlərdə gənclərin narkomaniya, erkən nikah kimi zərərli meyillərdən uzaq tutulması və bu sahədə qarşıda duran vəzifələr barədə danışılıb.

Yaxın tariximizin qəhrəmanlıq səhifəsi olan Aprel döyüşlərindən də söz açılan tədbirlərdə bildirilib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılması, erməni işğalçılarının 2016-cı ilin aprelində qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə qarşı hücumlarının dəf edilməsi zamanı qəhrəmancasına həlak olmuş bütün şəhidlərimizin şərəfli döyüş yolu gənclərimiz üçün nümunədir. Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçən qəhrəmanlarımız bizim qürurumuzdur. Qeyd edilib ki, şəhidlərin xatirəsi xalqımızın qəlbində əbədi yaşayır və onların ailələrinə dövlət tərəfindən hərtərəfli qayğı göstərilir.



# RAMAZAN AYININ BAŞLANMASI İLƏ ƏLAQƏDAR FƏTVA

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurası aprelin 29-da mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib. Fətvada bildirilir ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura ilahi rəhmət və bərəkət qapılarının açıldığı müqəddəs Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edir, Allah-Təaladan dua və ibadətlərimizin qəbul olunmasını diləyir.

"Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanasının 2019-cu il üzrə hesablamalarına görə, ölkə ərazimizin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Miladi tarixlə mayın 6-na təsadüf edir. Ay göründüyü andan etibarən Ramazani-şərif başlayır və niyyət gecəsi mayın 5-dən 6-na keçən gecəyə düşür.

İnsanların düşünüb ibrət almaları, Haqq yoluna hidayət olunmaları üçün göndərilən Qurani-Kərim məhz Ramazan ayının mübarək Qədr gecəsində nazil olub. Qadir Allah "Bəqərə" surəsinin 183-cü ayəsində Ramazanda oruc tutmağın müsəlmanlara vacib olduğunu bəyan edərək belə buyurub: "Ey iman gətirənlər. Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!"

Oruc insanı səbrə, nəfsi tərbiyə etməyə, paklıq, mərhəmət və xeyirxahlığa, habelə ehtiyac sahiblərinin halını anlamağa təşviq edən bir ibadətdir. Bu ibadətin fəzilətindən bəhs edən Peyğəmbər (s) buyurub: "Kim Ramazan ayının orucunu iman edərək və savabını yalnız Allahdan gözləyərək tutsa, keçmiş günahları bağışlanar". Rəsulullahın (s) "kiçiklərinizə mərhəmət və böyüklərinizə hörmət göstərin" tövsiyəsinə əsasən ilk olaraq valideynlərə ehtiram göstərmək, uşaq evlərinə, yaşlılara, ehtiyac sahiblərinə maddi və mənəvi dəstək olmaq, kimsəsizlərin kimsəsi olmaq orucluqda Allah-Təalanın rizasını qazanmaq üçün bir fürsətdir. Cəhənnəm qapılarının bağlandığı və ilahi məğfirətin bol olduğu Ramazanda Qurani-Kərimi oxuyub mənasını dərk etməyə çalışmaq, qohum-qonşuya baş çəkmək, əbədi aləmə köç edənlərin ruhunu yad etmək, insanların sevinc və qəminə şərik olmaqla cəmiyyətdə dostluq və qardaşlığı təbliğ etmək dinimizdə böyük savablardan hesab olunur.

QMİ bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazanın başlanğıcı, bu ayın namaz vaxtları və gündəlik dualarını, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, dindarlarımız başqa mənbələrdən əldə edilən, məzhəblərarası təfriqə və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərdən heç bir vəchlə istifadə etməsinlər. Din xadimləri belə halların qarşını almağa çalışmalıdırlar. Ümid edirik ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyətlərinin müvafiq qurumları da bu məsələdə öz köməyini əsirgəməyəcək, məhz QMİ tərəfindən tərtib edilən Ramazan təqviminin kütləvi informasiya vasitələrində, o cümlədən sosial mediada təbliğinə və yayılmasına nəzarət edəcəklər.

Qazılar Şurası və Elmi-Dini Şura mübarək Ramazan ayı ərzində iftar vaxtından əvvəl ehsan adı ilə açılan süfrələrdə iştirak etməyin böyük günahlardan hesab olunduğunu diqqətə çatdıraraq bildirir ki, belə məclislərdə iştirak edən din xadimləri barəsində ciddi tədbirlər görüləcək.

Qazılar Şurası tövsiyə edir ki, bu əziz ayda dinimizdə müqəddəs sayılan şəxslərlə yanaşı, Vətənimizin azadlığı və torpaqlarımzın bölünməzliyi uğrunda canlarından keçən 20 Yanvar, Qarabağ və Aprel şəhidlərinin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərliyin təbliğinə xüsusi diqqət yetirilsin.

İnşallah, Fitr bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək. Azərbaycan xalqı və dövləti bu böyük və əziz bayramı hər il yüksək səviyyədə qeyd edir. Dövlətimizin dini dəyərlərə, dindarlara və din xadimlərinə diqqət və qayğısı respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təzahürüdür. Dövlətimizin başçısı tərəfindən əhalinin rifahının daha da yüksəlməsi naminə həyata keçirilən sosial-iqtisadi islahatları və dinimizin təbliğ etdiyi humanizm prinsiplərinə uyğun olaraq azadlıqdan məhrum edilmiş yüzlərlə şəxsin əfv olunması haqqında imzalanan Sərəncamı ölkə dindarları böyük minnətdarlıq və rəğbətlə qarşılayırlar.

Orucluğun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə zəkatı Yaradana şükrün bir ifadəsi və canın sədəqəsi hesab olunur. Maddi baxımdan imkanı olan müsəlmanın, ailəsinin hər bir üzvü üçün, fitrə zəkatı çıxarıb imkansızlara və ehtiyac sahiblərinə verməsi vacibdir. Qazılar Şurası hazırkı şəraitə uyğun olaraq fitrə zəkatının adambaşına 5-10 manat dəyərində verilməsini məsləhət görür.

Ramazan duaların qəbul olunduğu bir aydır. Bu ayda müstəqil Azərbaycanımızın banisi mərhum Heydər Əliyevi rəhmətlə yad edir, dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı, xalqımızın tərəqqisi naminə əzmlə çalışan dövlətimizin başçısı İlham Əliyev cənablarına Allah-Təaladan xeyir-dualar diləyirik. Uca Rəbbimizdən arzumuz budur ki, ölkəmizdə və dünyada sülhü, əmin-amanlığı bərqərar eləsin, xalqımıza işıqlı və firavan gələcəyi, gələn Ramazan ayında iftarlarımızı doğma Qarabağımızda qeyd etməyi nəsib eləsin. Allah oruc və namazlarınızı qəbul etsin. Amin.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Ramazan ayı ilə əlaqədar verilən fətvanın ölkənin bütün məscidlərində və ibadət yerlərində din xadimləri tərəfindən oxunmasını məqsədəuyğun hesab edir", - deyə fətvada vurğulanır.

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə aməntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və sauməl-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

**QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ**



**2019 - 1440**

**RAMAZAN AYININ TƏQVİMİ**

**Bakı şəhəri**

| Həftənin günləri | Hicri 1440 | Miladi 2019 | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bazar ert. | 01 Ramazan | 06 May | 03:57 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:41 | 19:56 | 21:07 |
| Çərşən. ax. | 02 Ramazan | 07 May | 03:55 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:42 | 19:57 | 21:08 |
| Çərşənbə | 03 Ramazan | 08 May | 03:54 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:43 | 19:58 | 21:10 |
| Cümə axş. | 04 Ramazan | 09 May | 03:52 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:44 | 19:59 | 21:11 |
| Cümə | 05 Ramazan | 10 May | 03:51 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 19:45 | 20:00 | 21:12 |
| Şənbə | 06 Ramazan | 11 May | 03:49 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 19:46 | 20:01 | 21:14 |
| Bazar | 07 Ramazan | 12 May | 03:48 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 19:47 | 20:02 | 21:15 |
| Bazar ert. | 08 Ramazan | 13 May | 03:46 | 03:51 | 05:27 | 12:37 | 17:39 | 19:48 | 20:03 | 21:17 |
| Çərşən. ax. | 09 Ramazan | 14 May | 03:45 | 03:50 | 05:26 | 12:37 | 17:40 | 19:48 | 20:04 | 21:18 |
| Çərşənbə | 10 Ramazan | 15 May | 03:43 | 03:48 | 05:25 | 12:37 | 17:40 | 19:49 | 20:05 | 21:19 |
| Cümə axş. | 11 Ramazan | 16 May | 03:42 | 03:47 | 05:24 | 12:37 | 17:41 | 19:50 | 20:06 | 21:21 |
| Cümə | 12 Ramazan | 17 May | 03:41 | 03:46 | 05:23 | 12:37 | 17:42 | 19:51 | 20:07 | 21:22 |
| Şənbə | 13 Ramazan | 18 May | 03:39 | 03:44 | 05:22 | 12:37 | 17:42 | 19:52 | 20:08 | 21:23 |
| Bazar | 14 Ramazan | 19 May | 03:38 | 03:43 | 05:21 | 12:37 | 17:43 | 19:53 | 20:09 | 21:25 |
| Bazar ert. | 15 Ramazan | 20 May | 03:37 | 03:42 | 05:20 | 12:37 | 17:43 | 19:54 | 20:10 | 21:26 |
| Çərşən. ax. | 16 Ramazan | 21 May | 03:35 | 03:40 | 05:20 | 12:37 | 17:44 | 19:55 | 20:11 | 21:27 |
| Çərşənbə | 17 Ramazan | 22 May | 03:34 | 03:39 | 05:19 | 12:37 | 17:44 | 19:56 | 20:12 | 21:28 |
| Cümə axş. | 18 Ramazan | 23 May | 03:33 | 03:38 | 05:18 | 12:37 | 17:45 | 19:57 | 20:13 | 21:30 |
| Cümə | 19 Ramazan | 24 May | 03:32 | 03:37 | 05:17 | 12:37 | 17:45 | 19:58 | 20:14 | 21:31 |
| Şənbə | 20 Ramazan | 25 May | 03:31 | 03:36 | 05:17 | 12:37 | 17:46 | 19:59 | 20:15 | 21:32 |
| Bazar | 21 Ramazan | 26 May | 03:30 | 03:35 | 05:16 | 12:38 | 17:46 | 19:59 | 20:16 | 21:33 |
| Bazar ert. | 22 Ramazan | 27 May | 03:29 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:00 | 20:17 | 21:34 |
| Çərşən. ax. | 23 Ramazan | 28 May | 03:28 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:01 | 20:17 | 21:36 |
| Çərşənbə | 24 Ramazan | 29 May | 03:27 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:02 | 20:18 | 21:37 |
| Cümə axş. | 25 Ramazan | 30 May | 03:26 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:03 | 20:19 | 21:38 |
| Cümə | 26 Ramazan | 31 May | 03:25 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:03 | 20:20 | 21:39 |
| Şənbə | 27 Ramazan | 01 İyun | 03:24 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:04 | 20:21 | 21:40 |
| Bazar | 28 Ramazan | 02 İyun | 03:24 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:05 | 20:21 | 21:41 |
| Bazar ert. | 29 Ramazan | 03 İyun | 03:23 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:06 | 20:22 | 21:42 |
| Çərşən. ax. | 30 Ramazan | 04 İyun | 03:22 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:06 | 20:23 | 21:43 |

**Şəvval ayının 1-i (5 iyun) Fitr bayramıdır!**

# MÜBARƏK RAMAZAN AYININ GÜNDƏLİK DUALARI

***Ramazan ayının 1-ci gününün duası:***
"İlahi, bu ayda tutduğum orucu həqiqi oruc tutanların orucundan, gecələr oyaq qalmaqla etdiyim ibadətləri əsil gecə ibadətçilərinin ibadətindən qərar ver. Məni bu ayda qafillərin getdiyi yuxudan uzaq et. Bu ayda günahlarımdan keç, ey Aləmlərin Allahı. Məni bağışla, ey günahkarları bağışlayan!"

***Ramazan ayının 2-ci gününün duası:***
"İlahi, bu gün məni öz razılığına yaxınlaşdır, qəzəb və intiqamından uzaq et. Sənin ayələrini (Qurani-Kərimi) oxumaqda mənə müvəffəqiyyət ver. Sonsuz mərhəmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!"

***Ramazan ayının 3-cü gününün duası:***
"İlahi, bu gün mənə güclü ağıl və ayıq-sayıqlıq ruzisini əta et, məni səfehlik və dərrakəsizlikdən uzaqlaşdır. Bu gün göndərdiyin hər şeydə mənə xeyir nəsib et. Səxavətinə and verirəm, ey əliaçıqların ən səxavətlisi!"

***Ramazan ayının 4-cü gününün duası:***
"İlahi, əmrlərini yerinə yetirməkdə mənə qüvvət ver, zikrinin şirinliyini mənə dadızdır. Sənə layiqincə şükür etmək üçün məni ilhamlandır. Kəraminə and verirəm, məni öz himayəndə gizlət və qoru, ey görənlərin ən bəsirətlisi!"

***Ramazan ayının 5-ci gününün duası:***
"İlahi, bu gün məni bağışlanmışlardan, Sənin fərmanına baş əyən saleh bəndələrindən və yaxın dostlarından qərar ver. Mərhəmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!"

***Ramazan ayının 6-cı gününün duası:***
"İlahi, bu gün Sənə qarşı etdiyim günahlara görə məni rüsvay etmə. Məni intiqam qamçınla vurma. Bu gün Sənin qəzəbinə səbəb olan işlərdən məni uzaq et. Bəxşiş və nemətlərinə and verirəm, ey şövqlü şəxslərin arzusunun müntəhası!"

***Ramazan ayının 7-ci gününün duası:***
"İlahi, mənə bu gün oruc tutmaqda və gecə oyaq qalıb ibadət etməkdə kömək ol. Bu gün məni səhv və nöqsanlardan uzaqlaşdır. Sənin daimi zikrini mənə qismət et. Kömək və yardımına and verirəm, ey yolunu azmışların hidayətçisi!"

***Ramazan ayının 8-ci gününün duası:***
"İlahi, bu gün yetimlərə qarşı mehriban olmağı, ehtiyacı olanlara yemək verməyi, camaatla ucadan salamlaşmağı və kəramətli şəxslərlə dostluğu mənə nəsib et. Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin pənahı!"

***Ramazan ayının 9-cu gününün duası:***
"İlahi, bu gün öz bol rəhmətini mənə nəsib et. Məni öz parlaq dəlillərinlə istiqamətləndir. Məni Sənin razılığına bais olan və hər cür xeyri özündə cəm edən əməllərə doğru çək. Məhəbbətinə and verirəm, ey şövqlülərin istəyi!"

***Ramazan ayının 10-cu gününün duası:***
"İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən, Sənin nəzdində feyz və səadət tapanlardan, Sənin dərgahına yaxın olanlardan qərar ver. Ehsanına and verirəm, ey tələb edənlərin məqsədi!"

***Ramazan ayının 11-ci gününün duası:***
"İlahi, bu gün ehsan etməyi mənə sevdir! Bu gün fisq və asilikdən məni ikrah etdir! Bu gün öz qəzəbini və cəhənnəm atəşini məndən uzaqlaşdır! Yardımına and verirəm, ey fəryad edənlərin dadına çatan!"

***Ramazan ayının 12-ci gününün duası:***
"İlahi, bu gün günahlarımı gizlətmək və iffət bağışlamaqla məni zinətləndir. Bu gün mənə qənaət və kifayətcillik libasını geyindir. Məni bu gün ədalət və insafa vadar et. Bu gün məni bütün qorxduğum şeylərdən amanda saxla. İsmətinə and verirəm, ey qorxu içində olanların mühafizəçisi".

***Ramazan ayının 13-cü gününün duası:***
"İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbrli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı".

***Ramazan ayının 14-cü gününün duası:***
"İlahi, bu gün səhvlərimə görə mənə qəzəblənmə! Bu gün xətalarıma göz yum! Məni bəla və afətlərə hədəf etmə! İzzətinə and verirəm, ey müsəlmanlara izzət verən Allah!"

***Ramazan ayının 15-ci gününün duası:***
"İlahi, bu gün qəlbində Allah xofu olan şəxslərə məxsus itaəti mənə nəsib et! Bu gün sinəmi təvazökarların tövbəsi ilə genişləndir! Əminliyinə and verirəm, ey qorxu əhlinə əminlik bəxş edən Allah!"

***Ramazan ayının 16-cı gününün duası:***
"İlahi, bu gün yaxşı bəndələrin tayı olmağı mənə nəsib et! Məni pis adamlardan uzaqlaşdır! Bu gün mənə öz rəhmətinlə behişt qərargahında yer ver! Allahlığına and verirəm, ey aləmlərin Allahı".

***Ramazan ayının 17-ci gününün duası:***
"İlahi, bu gün məni saleh əməllərə doğru yönəlt! Ehtiyac və arzularımı yerinə yetir! Ey izaha və suala ehtiyacsız, qəlblərdəkindən xəbərdar olan Allah! Məhəmmədə və pak əhli-beytinə Sənin salavatın olsun".

***Ramazan ayının 18-ci gününün duası:***
"İlahi, bu gün məni səhərlərin bərəkəti ilə oyat! Qəlbimi bu səhərlərin ziyası ilə işıqlat! Bədən üzvlərimi bu günün təsirinə tabe olmağa yönəlt! Nuruna and verirəm, ey ariflərin qəlbini nurlandıran Allah".

***Ramazan ayının 19-cu gününün duası:***
"İlahi, bu günün bərəkəti ilə məni bəhrələndir! Xeyirliklərə doğru yolumu hamarla! Bu günün ehsanını qəbul etməkdən məni məhrum etmə! Ey aşkar haqq yolunun hidayətçisi".

***Ramazan ayının 20-ci gününün duası:***
"İlahi, bu gün mənim üzümə cənnət qapılarını açıb, cəhənnəm qapılarını bağla! Bu gün məni Qur'an oxumaqda müvəffəq et! Ey möminlərin qəlbinə aramlıq bəxş edən Allah".

***Ramazan ayının 21-ci gününün duası:***
"İlahi, bu gün Sənin razılığına bais olan əməllərə doğru mənə yol göstər! Bu gün şeytanın mənə hökmranlıq yollarını bağla! Cənnəti mənim üçün mənzil və aramgah et! Ey tələb əhlinin ehtiyacını yerinə yetirən Allah!"

***Ramazan ayının 22-ci gününün duası:***
"İlahi, bu gün fəzl qapılarını üzümə aç, bərəkətlərini mənə göndər. Bu gün sənin razılığına bais olan işlərdə məni müvəffəq et, məni behiştin ən yaxşı yerində sakin et. Ey biçarələrin duasını qəbul edən Allah!"

***Ramazan ayının 23-cü gününün duası:***
"İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyiblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!"

***Ramazan ayının 24-cü gününün duası:***
"İlahi, bu gün Səni razı salan əməlləri Səndən istəyirəm. Səni qəzəbləndirən əməllərdən Sənə sığınıram. Sənə tabe olmaq və Sənə qarşı üsyan etməmək üçün yardım istəyirəm. Ey xahiş edənlərə bəxşiş verən Allah!"

***Ramazan ayının 25-ci gününün duası:***
"İlahi, bu gün məni Sənin dostlarını sevənlərdən, Sənin düşmənlərinlə düşmən olanlardan qərar ver! Məni sonuncu Peyğəmbərinin sünnəsinə əməl edənlərdən qərar ver! Ey peyğəmbərlərin qəlbinin hamisi olan Allah!"

***Ramazan ayının 26-cı gününün duası:***
"İlahi, bu gün mənim səylərimi qiymətləndir, günahlarımı bağışla, əməlimi qəbul et, eyiblərimi ört! Ey bəndələrini hamıdan yaxşı eşidən Allah!"

***Ramazan ayının 27-ci gününün duası:***
"İlahi, bu gün mənə Qədr gecəsinin fəzilətini nəsib et! Bu gün mənim işlərimi çətinlikdən asanlığa doğru yönəlt! Üzrümü qəbul et, günah yükünü üstümdən götür! Ey saleh bəndələrinə qarşı mehriban olan Allah!"

***Ramazan ayının 28-ci gününün duası:***
"İlahi, bu gün mənə yaxşı əməllərin bəhrəsini bol et! İstəklərimi yerinə yetirməklə mənə kəramət göstər! Sənə yetmək üçün yollar içindən seçdiyim yolu özünə yaxın et! Ey israr edənlərin öz israrları ilə məşğul edə bilmədikləri Allah!"

***Ramazan ayının 29-cu gününün duası:***
"İlahi, bu gün məni öz sonsuz rəhmətinlə əhatə et! Bu gün mənə qüvvət və ismət nəsib et! Ürəyimi töhmətçilik qaranlığından təmizlə! Ey mömin bəndələrinə rəhmli olan Allah!"

***Ramazan ayının 30-cu gününün duası:***
"İlahi, bu gün mənim orucumu şükürlü və qəbul olunmuş qərar ver, öz bəyəndiyin və Peyğəmbərinin bəyəndiyi oruclardan et! Elə oruclardan ki, xırdalıqları da əsas iman prinsiplərinə əsaslansın. Səni and verirəm ağamız Məhəmmədə və pak nəslinə. Aləmlərin rəbbi olan Allaha həmd olsun".

***İftar duası:***
"İlahi, səndən ötrü oruc tutdum, sənin verdiyin ruzi ilə iftar açdım və sənə təvəkkül etdim. Bağışlayan və mehriban Allahın adı ilə. Ey hüdudsuz bağışlama sahibi, mənim günahlarımı bağışla!"

# DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ: NECƏ VƏ NƏ ETMƏLİ



Aprelin 23-də Zaqatala Rayon İcra Hakimiyyəti (RİH) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə Muxax kəndində "Dini radikalizmlə mübarizə: necə və nə etməli" mövzusunda seminar-treninq keçirilib.

Tədbiri giriş sözü ilə açan Zaqatala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ramin Həsənov mövzunun aktuallığından danışaraq bildirib ki, dini radikalizmin qarşısının alınmasında dini maarifləndirmə işinin aparılması ən önəmli məsələlərdəndir.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə çıxışında qeyd edib ki, günümüzdə Yaxın Şərqdə gedən proseslərin meydana çıxmasına səbəb dini radikalizm və dini ekstremizmdir. O bildirib ki, dini radikalizm dini savadsızlığın, xurafatın və cəhalətin təzahürüdür. C.Əlifzadə, həmçinin din və elmin bir-birləri ilə vəhdət təşkil etməsindən elmin, təhsilin dini radikalizmə qarşı mübarizədə önəmindən danışıb.

Daha sonra Zaqatala RİH başçısının Muxax kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Abdulkərim Şabanov və Qafqaz Müsəlmanları İdarəsinin Zaqatala rayon qazısı Malik Bilalov da dini radikalizm və ona qarşı mübarizədə elm və təhsilin əhəmiyyətindən bəhs edib, dini radikalizmə qarşı mübarizədə dindarların, din xadimlərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd ediblər.

Çıxışlardan sonra Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# BAKIDA PRAVOSLAV XRİSTİANLAR PASXANI QEYD EDİBLƏR

Tolerant və multikultural ölkə olan Azərbaycanda müxtəlif dinlərin, mədəniyyətlərin və milliyyətlərin nümayəndələri yüz illərdir yan-yana, sülh və qarşılıqlı anlaşma şəraitində yaşayırlar.

Aprelin 27-dən 28-nə keçən gecə Bakıdakı Müqəddəslər Jen-Mironosets Kafedral kilsəsində pravoslav xristianlar mübarək Pasxanı qeyd ediblər.

Pravoslav xristianlar kilsədə bayram ayinini yerinə yetiriblər. Onlar müqəddəs moizələrə qulaq asıb, şam yandırıblar.

Pasxa xristianların ən qədim, mühüm və əziz bayramlarından biridir. Pravoslav təqviminə görə, Müqəddəs Pasxa günü – İsa Məsihin dirilməsi bayramı bu il aprelin 28-nə təsadüf edir. Ənənəyə görə, cümə axşamı səhərdən başlayaraq şirin kökələr bişirilir, axşam Pasxaya hazırlıq görülür, şənbə günü onları kilsəyə aparır, şənbədən bazar gününə keçən gecə isə xristian dini məbədlərində Pasxanın başlanmasını və Məsihin Dirilməsi bayramını bildirən ibadət keçirilir.

Məsihin Dirilməsi münasibətilə Pasxa süfrəsi ətrafına toplaşan pravoslav xristianlar bir-birini boyanmış yumurtalar və şirin kökələrə qonaq edir, "Məsih dirilib!" sözləri ilə salamlayırlar.



# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**"Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 06 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 10

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Sənan Zeynal oğlu, Əlizadə Cəfər Hacıbaba oğlu, Hacıyev Tofiq Zəfər oğlu, Məmmədov Ağatahir Əliyulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyev Ramil Cavanşir oğlu, Pirverdiyev Nadir Gülməmməd oğlu, Salamov Akif Bəhman Mirzə oğlu, Dadaşov Bala Mirzə Kiçmirzə oğlu, Xəlilov Zeybulla Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 mart 2019-cu il

**"İmişli şəhər "İmam Rza" məscidi" dini icması**

Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A – 803

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Miradəm Əliağa oğlu, Nəsirov Kərim Səlim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abbasov Abbas Əliağa oğlu, Şiralıyev Elxan Bəybala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Abbasov Miradəm Əliağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Abbasov Abbas Əliağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 mart 2019-cu il

**"Zərdab rayonu Salahlı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il
Qeydiyyat №-si: 100116D – 698

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abulov Hüseyn Dünyamalı oğlu, Bədəlova Gülbaxça Adil qızı, Həsənova Zeynəb Yusif qızı, Abulova Zəmilə Bədəl qızı, Qasımov Əhmədxan Əhəd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cəbrayılov Zamir Əlisa oğlu, Bəyəliyev Əhməd Salah oğlu, Abulov Soltanəli Hüseyn oğlu, Səfərova Şəlalə Qurban qızı, Səftərov İlham Qurban oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Səftərov İkram Qurban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Səftərov İlham Qurban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 aprel 2019-cu il

**"Şəki şəhəri "Ömər Əfəndi" məscidi" dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 345

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Həbib Kəmənd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədli Asim Kamran oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 aprel 2019-cu il

**"Yardımlı rayonu Gendərə kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 350

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Əli Balaxan oğlu, Bağırova Yasəmən Mehrab qızı, Əliyev Elməddin Balaxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kazımov Valeh Dədəbala oğlu, Quliyeva Tünzalə Bəylər qızı, Nuriyeva Qarabirçək Feyruz qızı, Kazımov Nizami Dədəbala oğlu, Kazımov Nazim Dədəbala oğlu, Kazımova Şirinxanım Habil qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əliyev Əli Balaxan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Kazımov Valeh Dədəbala oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 aprel 2019-cu il

**"Salyan şəhəri "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 660

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Şaiq Soltanəhməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Sadıqov Seyidsadıq Ağalar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Quliyev Şaiq Soltanəhməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Sadıqov Seyidsadıq Ağalar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 aprel 2019-cu il

# CƏMİYYƏT və DİN

№ 04 (333) / Aprel 2019-cu il


# “LƏNKƏRAN QƏZASININ MAARİFÇİ DİN ALİMLƏRİ” (XIX ƏSRİN SONU - XX ƏSR) KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Ateizmin hökm sürdüyü Sovet hakimiyyəti illərində hər hansısa din xadimi, din alimi, məscid və ziyarətgah haqqında kitab, məqalə yazmaq qadağan idi. Həmin dövrdə din xadimləri təqiblərə, repressiyaya məruz qalırdılar. Ancaq ölkəmiz müstəqillik qazandıqdan sonra dinə olan qadağa aradan qaldırılmış, Qurani-Kərim Azərbaycan dilinə tərcümə edilmiş, doğma dilimizdə dini ədəbiyyatlar çap olunmuş, din alimlərimiz, məscidlərimiz və ziyarətgahlarımız haqqında çoxlu sayda kitablar yazılmışdır.

Bu yaxınlarda həmin kitablar sırasına yeni bir kitab əlavə olundu. Lənkəranın görkəmli din alimlərindən bəhs edən kitabın müəllifi Elşən İsmayıllıdır. Kitab 6 bölməyə - “İslam dini baxımından elm və alimin dəyəri”, “XIX əsrin sonu-XX əsrdə Lənkəranda dini elmi mərkəzlər və elm adamları”, “XIX əsrin sonu-XX əsrdə xaricdə təhsil alan Lənkəranlı din xadimləri”, “Xarici ölkələrdə azərbaycanlılara məxsus mədrəsələr və kitabxanalar”, “Lənkərani” təxəllüsünün din xadimləri tərəfindən seçilməsinin səbəbi” və “Lənkəranlı din xadimləri” ayrılmış, sonda bəzi terminlərin izahı verilmişdir.

Ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif vaxtlarda yazılmış kitablarda bölgənin bəzi din alimləri, din xadimləri haqqında məlumat verilsə də, onlar barəsində ümumi, yığcam bir kitab ərsəyə gətirilməmişdi. Bu cəhətdən E.İsmayıllının gördüyü iş təqdirəlayiqdir.

Kitabın “Lənkəranlı din xadimləri” adlanan sonuncu bölməsi müəllifin böyük zəhmət sərf etdiyini və gərgin çalışdığını göstərir. E.İsmayıllı bu bölmədə 85 din alimi haqqında məlumat vermişdir. İran və İraqda maarifçilik fəaliyyəti ilə məşğul olmuş din alimlərimizin əksəriyyəti bugünkü inzibati-ərazi bölgüsünə əsasən Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından olsalar da, yaşadıqları dövrün inzibati-ərazi bölgüsünə görə (Lənkəran qəzası) özlərinə “Lənkərani” təxəllüs seçmişlər.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabdan din xadimləri, ilahiyyatçılar, dini təhsil alan tələbələr və bu sahədə çalışan müəllimlər istifadə edə bilərlər.

Qeyd edək ki, kitabın redaktoru Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, ön sözün müəllifi isə Lənkəran bölgə şöbəsinin müdiri Qağayı Məmmədovdur.

**İldırım ŞÜKÜRZADƏ,**
tədqiqatçı-tarixçi

# ŞİRİN İÇKİLƏRƏ VERGİ QOYULA BİLƏR

Avstraliyada Kvinslend Universitetinin ictimai səhiyyə məktəbinin hazırladığı tövsiyə xarakterli hesabata əsasən, tərkibində şəkər olan içkilərə 20 faizlik vergi tətbiq edilməsi hər il dövlət büdcəsinə əlavə 400 milyon Avstraliya dolları vəsait cəlb olunmasına və səhiyyə xərclərinin 20 milyon dollar azaldılmasına şərait yaradacaq.

Hesabatda şəkərə vergi tətbiq edilməsinin iqtisadi nəticələrinə və bunun əhalinin sağlamlığına təsirinə toxunulub.



Hesabatda deyilir: “Şəkərli içkilərə vergi qoyulması nəticəsində 2-ci tip diabet xəstəliyinə tutulanların sayının ildə 800 nəfər azalacağını müəyyənləşdirdik. Qarşıdakı 25 il ərzində ölkədə ölüm sayında hər il 1600 azalma olacaq, ürək-damar xəstəliklərinin insan ölümlərinə təsiri isə əhəmiyyətli şəkildə azalacaq”.

**Yadigar söz**

***Artur Şopenhauer***
*(alman filosofu)*

***Kitabxanalar bəşəriyyətin yeganə etibarlı və qalıcı olan yaddaşıdır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (May - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:05 | 04:10 | 12:38 | 17:33 | 19:51 | 21:00 |
| 2 | 04:03 | 04:08 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 3 | 04:02 | 04:07 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 4 | 04:00 | 04:05 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 5 | 03:58 | 04:03 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 6 | 03:57 | 04:02 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 7 | 03:55 | 04:00 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 8 | 03:54 | 03:59 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 9 | 03:52 | 03:57 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 10 | 03:51 | 03:56 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 11 | 03:49 | 03:54 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 12 | 03:48 | 03:53 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 13 | 03:46 | 03:51 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 14 | 03:45 | 03:50 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 15 | 03:43 | 03:48 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 16 | 03:42 | 03:47 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 17 | 03:41 | 03:46 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 18 | 03:39 | 03:44 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 19 | 03:38 | 03:43 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 20 | 03:37 | 03:42 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 21 | 03:35 | 03:40 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 22 | 03:34 | 03:39 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 23 | 03:33 | 03:38 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 24 | 03:32 | 03:37 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 25 | 03:31 | 03:36 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 26 | 03:30 | 03:35 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 27 | 03:29 | 03:34 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 28 | 03:28 | 03:33 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 29 | 03:27 | 03:32 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 30 | 03:26 | 03:31 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 31 | 03:25 | 03:30 | 12:38 | 17:49 | 20:20 | 21:39 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# DƏRMAN İÇMƏDƏN TƏZYİQİN AŞAĞI SALINMASI ÜÇÜN 6 MƏSLƏHƏT



Son zamanlar təzyiqin aşağı salınmasında dərmansız üsullara üstünlük verilməsi barədə söhbətlər tez-tez eşidilir. Rusiyalı mütəxəssis, terapevt-kardioloq Olqa Aleksandrova bildirib ki, bu üsullar orta və ağır hipertenziyalar zamanı dərmanı əvəz edə bilməz. Bununla yanaşı, dərman vasitələri ilə uyğunlaşmada onlar yenə də aktualdır.

DASH-pəhriz. Qidalanmanın bu növü təzyiqi aşağı salma vasitəsi kimi Ürək və Ağciyər Xəstəlikləri Milli İnstitutu tərəfindən qəbul edilib. Pəhrizin böyük hissəsini tərəvəz və meyvə, kəpəkli taxıl məhsulları təşkil edir. Bu zaman qırmızı ət və şirniyyatların qəbulu xeyli azaldılır. Həmçinin yağsız süd məhsulları, quş və balıq əti qəbul etmək məsləhətdir. DASH-pəhrizin köməyi ilə orta hipertoniyalı pasiyentlərin təzyiqini 14 gün ərzində normallaşdırmaq mümkündür.

Fiziki aktivlik. Həkim təzyiqin nəzarətdə saxlanılması üçün ən sadə və effektli üsul kimi orta tempdə kardioyüklənmələrdən (piyada gəzmək, rəqslər, lift əvəzinə pilləkəndən istifadə etmə) istifadə etməyi məsləhət görür.

İstirahət. Sağlamlıq üçün sərbəstlik anları, mühafizəkar hadisə və işlərdən uzaqlaşmaq çox vacibdir. Elə hərəkət etmək lazımdır ki, qısa müddətdə öz fikrindən əl çəkməyə, emosional şəkildə “yüklənmə”yə nail olasan. Məsələn, həkimin sözlərinə görə bu məqsədlər üçün meditasiya, təkbaşına gəzinti daha uyğundur.

Bədən çəkisinə nəzarət. Artıq çəkidə, xüsusən onun yüksək əmsalı zamanı arıqlamaq mütləqdir. Tosqunluq praktik olaraq yüksək təzyiqi təmin edir.

Həkim, həmçinin alkoqoldan imtina etməyi və duzdan minimum istifadəni tövsiyə edib. Aleksandrova xatırladıb ki, yüksək təzyiq zamanı alkoqol insult əmələ gətirə bilər.


Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).



Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99



Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894